RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 222 (8245) ÇƏRŞƏNBƏ AXŞAMI, 8 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# NİDA işarəsi: Böyük Qələbənin parolu

- ✦ Nöqtə işarəsinin ifadə etdiyi işğalçı hərbi-siyasi mətləb Ermənistanı böhranın dərin burulğanına salmış nöqtədir!
- ✦ Ermənistan baş naziri Nikol Paşinyanın yürütdüyü məntiqsiz nöqtə siyasəti bütövlükdə erməni xalqının durğunluq nöqtəsindən çıxmasına imkan vermir!
- ✦ Nöqtə işarəsindən yaxa qurtara bilməməsi Nikol Paşinyanı özündənəvvəlki başabəla rəsmilərin acı taleyindən uzağa apara bilməz!
- ✦ Əgər Nikol Paşinyan doğrudan da Ermənistanı düşdüyü ağır böhran vəziyyətindən qurtarmaq və münaqişəni həll etməyə çalışmaq istəyirsə, nöqtə işarəsinin məhdud mühasirəsindən çıxmağı bacarmalı və özünə başqa bir durğu işarəsi tapmalıdır!
- ✦ Əks halda səsləndirdiyi qeyri-obyektiv və məsuliyyətsiz bəyanat Nikol Paşinyanın siyasi karyerasına nöqtə qoya bilər!
- ✦ Prezident İlham Əliyevin bəyanatında ifadə olunan "nida işarəsi" isə Azərbaycan xalqının Dağlıq Qarabağ uğrunda mübarizəyə həmişə hazır olduğunu ifadə edən həyəcan təbilidir!
- ✦ Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır" bəyanatının sonunda işlətdiyi "Nida işarəsi" Azərbaycan üçün Böyük Qələbənin parolu və anonsudur.

Bütün istiqamətlər üzrə hərtərəfli şəkildə yüksək templə inkişaf edən müstəqil Azərbaycan dövləti dünyaya müharibə şəraitində fəaliyyət göstərib, ardıcıl olaraq yüksələn xətlə irəliyə doğru qətiyyətlə addımlamağın nümunəsini göstərir. Hazırda Azərbaycanda inkişaf prosesində olmayan, yeni-yeni nailiyyətlər əldə edilməyən, daha böyük irəliləyişlərə istiqamət almayan sahə yoxdur.

Müstəqil Azərbaycan Respublikası bütün dünyanın gözü qarşısında sabit, dinamik və sülhsevər dövlət kimi xalqımızın rifahının yüksəlməsinə uğurla xidmət etməklə bərabər, həm də dünya birliyinə özünün sanballı töhfələrini verməkdə davam edən ölkə olaraq tarixi yolu ilə qətiyyətlə addımlayır. Bu, Prezident İlham Əliyevin dövlət başçısı kimi apardığı məqsədyönlü siyasətin sözün əsl mənasında real təntənəsidir.

Məlum olduğu kimi, müstəqil Azərbaycan dünyada dialoq məkanı olan ölkə kimi qəbul olunur. Dialoq məkanı olmaq ilk növbədə ölkəmizdə yaşayan bütün xalqların və etnik qrupların möhkəm həmrəyliyinin təmin edilməsinə nail olmağı şərtləndirmişdir. Eyni zamanda, dialoq ölkəsi olan Azərbaycan dövləti dünyada multikultural dəyərlərin inkişafına, müxtəlif mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşdirilməsinə meydan açır, şərait yaradır, dəstək verir. Ardıcıl olaraq çoxaspektli dialoq siyasəti aparan Prezident İlham Əliyev bununla ölkəmizdə olduğu kimi, dünyada da sülhə, birgəyaşayışa, həmrəyliyə, qarşılıqlı etimada və əməkdaşlığın möhkəmləndirilməsinə öz töhfəsini verir. Azərbaycanda keçirilmiş sivilizasiyaların, mədəniyyətlərin, dinlərin dialoq forumları ölkəmizdə və dünyada sabitliyin, ədalətin, həmrəyliyin, iş birliyinin həyat normasına çevrilməsinə Azərbaycanın töhfələridir.

Bu gün Azərbaycanın beynəlxalq aləmdə yüksək nüfuza malik olması möhtərəm Prezidentin qazandığı ən böyük nailiyyətlərdəndir. Buna görədir ki, dövlət başçımızın səsləndirdiyi fikirlər, bəyanatlar, beynəlxalq təşkilatlarda etdiyi çıxışlar, irəli sürdüyü çağırışlar dünya birliyi tərəfindən ehtiramla qəbul olunur, diqqətə alınır və həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müasir dünyanın əsas liderlərindən biri kimi qəbul olunması müstəqil dövlətimizi dünyadakı əsas söz sahiblərindən birinə çevirmişdir. Bu, hər bir Azərbaycan vətəndaşı üçün əsas qürur və iftixar mənbəyi olan mühüm nailiyyətdir.

Bu müstəvidən baxdıqda Prezident İlham Əliyevin bu günlərdə Rusiyanın Soçi şəhərində keçirilmiş "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında iştirakı, həmin iclasın plenar sessiyasındakı dərin məzmunlu çıxışı və səsləndirdiyi bəyanatlar ölkəmizin rəhbərinin və müstəqil dövlətimizin strateji vəzifələrinin həyata keçirilməsi və beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsi istiqamətində atılmış növbəti düşünülmüş addım kimi qiymətləndirilməyə layiq olan mühüm siyasi hadisədir.

*Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar iclasındakı nitqi ilk növbədə bir daha* **Azərbaycan Respublikasını dünyaya təqdim etmək, ölkə reallıqlarını beynəlxalq ictimaiyyətə çatdırmaq sahəsində növbəti uğurlu gedişdir.**

"Valday" Beynəlxalq Diskussiya Klubunun XVI iclasının Şərq siyasətinə həsr olunması fürsətindən istifadə edən dövlət başçımız Azərbaycanda əldə edilən nailiyyətləri və qarşılıqlı əməkdaşlıq istiqamətindəki prosesləri diqqət mərkəzinə çəkməklə ölkəmizə yeni tərəfdaşlar və partnyorlar qazandırmağa yol açır.

*Ardı 3-cü səh.*

# İlham Əliyev Vladimir Putini ad günü münasibətilə təbrik edib

**Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.**



Dövlətimizin başçısı Vladimir Putini ad günü münasibətilə səmimi-qəlbdən təbrik edib, ona Rusiya dövlətinin və xalqının tərəqqisi naminə prezidentlik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident Vladimir Putin göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları bu yaxınlarda keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun növbəti iclasının əhəmiyyətinə toxunaraq, Soçidə ölkə başçıları arasında aparılan danışıqların strateji tərəfdaşlığa əsaslanan ikitərəfli dostluq münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verdiyini vurğulayıb, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.

Söhbət zamanı Prezident İlham Əliyev və Prezident Vladimir Putin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi ilə bağlı və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Rusiyanı mühüm tərəfdaşlardan biri, mehriban dost, qonşu hesab edir

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarına müsahibəsi



Xəbər verildiyi kimi, oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Soçi şəhərinə səfəri zamanı "Valday" Beynəlxalq Diskussiya Klubunun iclası ərəfəsində Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

**- Salam, cənab Prezident. Aleksey Qolovko, "Vesti" proqramı.**

- Çox xoşdur.

**- Bu il "Valday"ın mövzusu "Şərqin şəfəqi"dir, Asiya ölkələrinə xüsusi diqqət yetirilir. Rusiya kimi, Azərbaycan da, demək olar, Avropa ilə Asiyanın qovuşuğunda yerləşir. Siz burada hansı əsas məsələləri qaldırmaq və hansı suallara cavab almaq istərdiniz?**

- Əvvəla, "Valday" Diskussiya Klubunda iştirak etmək dəvətinə görə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinə minnətdarlığımı bildirmək istərdim. Valday klubu özünü dünya gündəliyinin və çox vacib aktual məsələlərin müzakirəsi üçün diskussiya platformalarından biri kimi göstərib. Əlbəttə ki, mən bu gün Vladimir Vladimiroviçlə görüşmüşəm. Biz ikitərəfli münasibətlərimizin çox zəngin olan və xeyli sahələri əhatə edən gündəliyini müzakirə etmişik. Buna görə də mən, şübhəsiz ki, ikitərəfli gündəliyi, Azərbaycanın rastlaşdığı mühüm problemləri, yeni çağırışları işıqlandırmağı planlaşdırıram. Odur ki, mən bu gün çox maraqlı diskussiyaya ümid bəsləyirəm.

**- Məlum olduğu kimi, Azərbaycanın Qərb ölkələri ilə yaxşı münasibətləri var. Rusiya artıq bir neçə ildir ki, sanksiyalar altındadır. Bu, Sizə Rusiya ilə əməkdaşlıq etməyə və bütün bu ikitərəfli layihələri inkişaf etdirməyə mane olmurmu?**

- Xeyr, qətiyyən mane olmur. Bizim Rusiya ilə münasibətlərimiz hər hansı xarici siyasi gündəlikdən azaddır. Bu münasibətlər zamanın sınağından çıxıb. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri adlandırır. Bu, həqiqətən də, belədir. Çünki biz həm qonşuyuq, həm də mehriban dostlarıq. Son vaxtlar bizim münasibətlərimiz xeyli səmərəli və keyfiyyətli olub. Biz həm beynəlxalq meydanlarda əməkdaşlıq edir, həm də bir-birimizi dəstəkləyirik. Deməliyəm ki, AŞ PA-nın iyun sessiyasında Rusiya nümayəndə heyətinin qayıdışı məsələsi həll olunarkən Azərbaycan nümayəndə heyəti tam tərkibdə Strasburqda Rusiyanın Avropa Şurası Parlament Assambleyasına qayıtmasına səs vermişdi.

*Ardı 2-ci səh.*

# İki ildə 6 görüş, 5,8 milyard dollarlıq qarşılıqlı sərmayə

## Prezident İlham Əliyevin Soçi səfəri və Vladimir Putinlə görüşü iqtisadi-ticari əməkdaşlığın gələcək inkişafı üçün möhkəm əsas yaratdı

*Ötən həftə ölkəmizin ictimai-siyasi həyatında daha bir tarixi hadisə yaşandı. Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə oktyabrın 2-3-də bu ölkədə səfərdə olan Prezident İlham Əliyev beynəlxalq münasibətlərin aktual məsələlərinin müzakirəsi üçün önəmli platforma olan "Valday" Beynəlxalq Diskussiya Klubunun XVİ illik iclasının plenar sessiyasındakı çıxışı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində qətiyyətli, prinsipial mövqeyini bir daha dünyaya bəyan etdi.*

*Azərbaycan-Rusiya əlaqələrinin kompleks inkişafı baxımından xüsusi əhəmiyyət daşıyan bu səfər iki ölkə arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsində də mühüm önəm kəsb edirdi. Soçidə də Prezident Vladimir Putinlə cənab İlham Əliyev arasında baş tutan yüksək səviyyəli ikitərəfli görüş bunun əyani təzahürü oldu.*



### Rusiya qeyri-neft məhsullarımızın ixracı üzrə ilk yerdədir

Bu gün Azərbaycanla Rusiya arasında ticarət əlaqələri yüksək templə inkişaf edir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Bu ölkənin Cənubi Qafqazda ticarət əlaqələrinin təxminən yarısı Azərbaycanın payına düşür. Rusiya qeyri-neft məhsullarımızın ixracı üzrə ilk yerdədir.

Belə ki, bu ilin 8 ayı ərzində ölkəmizdə qeyri-neft sektoru üzrə 1 milyard 277 milyon dollar dəyərində ixrac həyata keçirilib. Qeyri-neft sektoruna aid mal ixrac etdiyimiz ölkələr sırasında Rusiya (427,1 milyon dollar) birinci, Türkiyə (278,6 milyon dollar) ikincidir. Ötən ilin eyni dövrü ilə müqayisədə, yəni 8 ayda Rusiyaya qeyri-neft ixracı 15 faiz artıb. Bu ilin avqust ayında qeyri neft-qaz məhsulları üzrə də ən çox mal Rusiyaya (31,2 milyon dollar) ixrac edilib.

İqtisadi əməkdaşlıqda kənd təsərrüfatı önəmli yer tutur. Rusiya kənd təsərrüfatı və emal məhsullarımızın əsas alıcısıdır. Ötən il qonşu ölkəyə 560 min tondan çox məhsul ixrac olunub. Bununla yanaşı, Rusiya şirkətləri Azərbaycana kənd təsərrüfatı texnikası ixrac edir. Son illərdə Rusiyadan 900-ə yaxın müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası, 650 min tondan çox mineral gübrələr alınıb.

Azərbaycan-Rusiya münasibətlərinin dinamik inkişafında ilk növbədə dövlət başçıları arasındakı möhkəm dostluq münasibətlərinin, qarşılıqlı təmasların müstəsna rolu var.

*Ardı 2-ci səh.*

### Aida İmanquliyeva - 80

# Əbədiyaşar insan



"Məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti mənə anam - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Hər bir ədalətsizliyə qarşı barışmaz mövqedə dayanan, işinə, elmə və pedaqoji fəaliyyətə hədsiz sədaqətli olan anam öz qısa həyatında inanılmaz zirvələri fəth etdi".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva müsahibələrinin birində anası, professor Aida İmanquliyevanı lakonik şəkildə belə xarakterizə etmişdir. Həqiqətən, Aida xanımın elmi yaradıcılığına nəzər saldıqda bu ifadələrin öz təsdiqini tapdığına şahid oluruq.

Aida Nəsir qızı İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olmuşdur. 1957-ci ildə Bakı şəhəri 132 nömrəli orta məktəbi qızıl medalla bitirmiş və Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinin ərəb filologiyası şöbəsinə qəbul olunmuşdur.

*Ardı 5-ci səh.*

### *Rusiyanın ən nüfuzlu yazıçısı Aleksandr PROXANOV:*

# "Zal İlham Əliyevi alqışlayırdı"

Azərbaycan Prezidenti İlham Əliyevin nitq söylədiyi Soçidəki "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Rusiyanın ən nüfuzlu yazıçısı, tanınmış ziyalı, siyasi və ictimai xadim, İzborsk klubunun sədri və həmtəsisçisi, "Zavtra" qəzetinin baş redaktoru Aleksandr Proxanov da iştirak edib.

AZƏRTAC xəbər verir ki, Aleksandr Proxanov təəssüratlarını Media.az ilə bölüşərək deyib: "Prezident İlham Əliyevin çıxışının əsas ideyası Dağlıq Qarabağ münaqişəsi ilə bağlı idi. Azərbaycan Prezidenti münaqişənin yaranması tarixindən və dalana dirənmiş danışıqlardan ətraflı bəhs etdi, davam edən hərbi əməliyyatlardan danışdı. Onun çıxışından bir müddət əvvəl erməni snayperinin azərbaycanlı dinc sakini öldürməsi barədə informasiya daxil olmuşdu. Prezident İlham Əliyev Yerevanın "Qarabağ Ermənistandır və nöqtə" iddiasını ehtiva edən formuluna digər - "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı ilə cavab verdi.

A.Proxanov qeyd edib: "Ümumilikdə söhbət Asiyada "hərbi forma" alan yerlərdəki münaqişəli vəziyyətlərdən gedirdi. İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin münaqişələrin nizamlanması məsələsində konstruktiv mövqeyini qeyd edib".

*Ardı 4-cü səh.*

### *Məşhur jurnalist Arkadi MAMONTOV:*

# "Bizim Prezident Vladimir Putinin İlham Əliyevlə dostluq etməsi təsadüf deyil"

Rusiya və Azərbaycan arasında informasiya əməkdaşlığının səviyyəsi: post-sovet məkanında bugünkü reallıqları nəzərə alsaq, Rusiya və Azərbaycan cəmiyyətlərinin ehtiyaclarına nə dərəcədə uyğundur?

Media.az saytı Rusiya Televiziya Akademiyasının üzvü, Rusiyanın ən məşhur jurnalistlərindən biri, televiziya aparıcısı, çoxsaylı sənədli filmlərin müəllifi Arkadi Mamontovdan bu mövzuda müsahibə alıb. AZƏRTAC həmin müsahibəni təqdim edir.

- Mən hesab edirəm ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında informasiya mübadiləsi son dərəcə vacibdir, amma o, ürəkaçan deyil.

**- Bundan ötrü nə çatışmır?**

- Əlbəttə, biz Rusiyada müasir Bakının indi necə yaşadığını daha yaxşı bilmək istərdik. Şəxsən mənim üçün indi Azərbaycan kinematoqrafının necə inkişaf etdiyini, indi Azərbaycan haqqında nələr danışdıqlarını *(Rusiyada - redaksiya)* bilmək maraqlı olardı. Hər şeydən əvvəl deməliyəm ki, sizin dəyərli Prezidentiniz İlham Əliyev çox güclü şəxsiyyət, böyük siyasətçidir.

*Ardı 3-cü səh.*

# Azərbaycan türk birliyi prosesində xüsusi yer tutur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonağı salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Sizi mühüm hadisə - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının növbəti sammiti ərəfəsində yenidən görməyimə şadam. Bu, mühüm hadisəyə hazırlığın son ştrixlərini müzakirə etmək üçün yaxşı imkandır. Biz çox fəal hazırlaşırıq. Əminəm ki, sammit yüksək səviyyədə keçəcək, bizim dövlətlərin əməkdaşlığı işində yeni mərhələlərə nail olacağıq.

Son illərdə əməkdaşlığımızın coğrafiyası genişlənir. Bizim üçün çox xoşdur ki, qardaş dövlətlər təşəbbüslərimizə qoşulur. İndiki sammit yubiley sammiti olacaq. Azərbaycanın qədim şəhəri olan Naxçıvanda 10 il əvvəl biz Əməkdaşlıq Şurasının yaradılması ilə bağlı qərar qəbul etdik. Mən bu mühüm qərara gətirib çıxaran bütün məqamları təfərrüatı ilə xatırlayıram. Siz bilirsiniz ki, Azərbaycan qardaş dövlətlərin başçılarını ilk dəfə deyil ki, qəbul edir. Buna görə də, əminəm ki, həm təşkilati tərəfi, həm də məzmun cəhəti yüksək səviyyədə olacaq. Bu mühüm tədbir ərəfəsində biz sizinlə sammitə hazırlıqla bağlı son məqamları müzakirə etməliyik ki, tədbir uğurla keçsin və bizim ölkələri daha da sıx birləşdirsin.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi **Bağdad AMREYEV** dedi:

- Bizi qəbul etdiyinizə görə sağ olun, cənab Prezident. Doğrudan da sammit artıq yaxınlaşmaqdadır. Həqiqətən də indi görülən işlər və sammitə qədər nələri edə biləcəyimizi Sizə bildirməyimə böyük ehtiyacım var. İlk növbədə demək istərdim ki, Azərbaycan, ümumiyyətlə, türk birliyi prosesində xüsusi yer tutur. Məhz Azərbaycan torpağı Naxçıvanda razılaşma imzalanıb. Məhz Bakıda, Azərbaycan torpağında siz yubiley sammitini qəbul edirsiniz. Artıq 10 ildir ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası fəaliyyət göstərir. Həmin 10 il bir növ təşəkkül dövrü olub. İndi bu dövrü Sizin siyasi iradəniz, türk birliyinin formalaşması üzrə verdiyiniz mühüm qərarlar sayəsində başa çatdırmışıq. Biz təşəkkül, təsisat dövrünü başa vurmuşuq. İndi isə biz yeni mərhələyə - artıq böyük inteqrasiya mərhələsinə keçirik.

## *Sooronbay JEENBEKOV:* "Qırğızıstan Azərbaycanla bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verir"



Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubovun rəhbərliyi ilə nümayəndə heyəti Azərbaycan-Qırğızıstan Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının iclasında iştirak etmək üçün Bişkekə gedib.

AZƏRTAC xəbər verir ki, Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov Azərbaycan Baş Nazirinin birinci müavini, komissiyanın ölkəmiz tərəfdən həmsədri Yaqub Eyyubovu qəbul edib.

Görüşdə ölkələrimiz arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Dövlət başçısı deyib ki, Qırğızıstan Azərbaycanla qarşılıqlı inama və hörmətə əsaslanan dostluq əlaqələrinin və bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verir. Prezident vurğulayıb ki, ikitərəfli münasibətlərin gələcək inkişafında əsas amillərdən biri iqtisadi əməkdaşlığın dərinləşdirilməsidir.

Sooronbay Jeenbekov ölkələr arasında energetika, nəqliyyat, dağ-mədən sənayesi, turizm sahələrində birgə layihələrin həyata keçirilməsinin mühüm amillərdən olduğunu vurğulayıb.

Yaqub Eyyubov Azərbaycan Prezidenti İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçiriləcək Zirvə görüşündə Sooronbay Jeenbekovu görməkdən məmnun olacağını söyləyib. O, komissiyanın üçüncü iclasının Bişkekdə keçirilməsinə görə Qırğızıstan tərəfinə minnətdarlıq edərək xatırladıb ki, ikinci iclas beş il bundan əvvəl Bakıda keçirilib.

Baş Nazirin birinci müavini qeyd edib ki, iki dövlət arasında qardaşlıq münasibətləri ikitərəfli ticari-iqtisadi əlaqələrin əsasını təşkil edir.

Görüşdə Azərbaycan Xarici İşlər nazirinin müavini Xələf Xələfov və ölkəmizin Qırğızıstandakı səfiri Hidayət Orucov da iştirak edib.

# Azərbaycan Rusiyanı mühüm tərəfdaşlardan biri, mehriban dost, qonşu hesab edir

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarına müsahibəsi

*Əvvəli 1-ci səh.*

Biz həmçinin BMT, ATƏT, təbii ki, MDB məkanında sıx qarşılıqlı fəaliyyət göstəririk, çox sıx ticari-iqtisadi münasibətlərimiz mövcuddur. Bu il əmtəə dövriyyəsi 20 faizdən çox artıb. Rusiyadan Azərbaycana, Azərbaycandan Rusiyaya çoxmilyardlı investisiyalar qoyulur. Energetika, nəqliyyat, humanitar, hərbi-texniki və turizm sahələrində əməkdaşlıq edirik. Yeni əməkdaşlıq etmədiyimiz sahələrin adını çəkmək daha asandır. Buna görə bir daha demək istəyirəm ki, müstəqil xarici siyasət kursu yeridən ölkə kimi Azərbaycan Rusiyanı mühüm tərəfdaşlardan biri, mehriban dost, qonşu hesab edir. Prezident Putinlə bugünkü görüş bunu bir daha təsdiq etdi.

**- Daha bir sual siyasət barədə yox, Sizin alma-mater - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu ilə bağlıdır. Tezliklə yubileyi olacaq. Siz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları arasında ilk Prezidentsiniz. Bu təhsil Sizə hansı əsas keyfiyyətləri verib və bu, Sizə indi siyasi fəaliyyətinizdə necə kömək edir?**

- Bilirsiniz, tələbəlik illəri hər bir insan üçün xüsusi illərdir. Bu, yetkinləşmək, müstəqil həyata qədəm qoymaq illəridir. Məndə bu dövr yaşayış yerimi dəyişərək Bakıdan Moskvaya köçməklə müşayiət olunub. Deməliyəm ki, valideynlərim məni məktəbə tez, hələ 6 yaşım tamam olmamış göndəriblər. Buna görə də mən orta təhsilimi 16 yaşım tamam olmamış bitirmişəm. Açıq deyəcəyəm, mənim heç pasportum da yox idi. Buna görə də mən Moskvaya ali məktəbə qəbul olunmağa arayışla gəlmişdim. İlk qış sessiyası qabağı isə 16 yaşım tamam oldu və mən pasport aldım. Əlbəttə, bu, yeniyetməlik çağıdır. Amma mən institutda özümü çox rahat hiss edirdim. Çünki şərait çox müsbət idi, həm qrupdakı uşaqlarla, həm də müəllimlərlə çox yaxşı münasibətlərim yaranmışdı. Həmin illər unudulmazdır. Onlar mənə bilik, ünsiyyət təcrübəsi verib. Bu, ilk müstəqil həyat təcrübəsi idi. Deməliyəm ki, institutu bitirdikdən sonra mən ölkələrdən birində SSRİ səfirliyində işə təyinat alsam da, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda qalmağa üstünlük verdim. Aspiranturaya daxil oldum, dissertasiya müdafiə etdim, bundan sonra xeyli illər orada işlədim. Yəni mənim 15 ilim institutla əlaqədar olub. Əlbəttə ki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məzunlarının ilk forumunun mənim təşəbbüsümlə Bakıda keçirilməsini elə bütün bunlar müəyyənləşdirdi. Hətta yadımdadır, o vaxt zarafat etdim ki, başqa cür ola da bilməz, təkcə ona görə yox ki, həmin vaxt mən yeganə Prezident idim, həm də əlifbaya uyğun olaraq istər ölkənin, istərsə də soyadımın ilk hərfinə görə belə olmalı idi. Forum Bakıda keçirilməli idi. Çox şadam ki, bu forum artıq ənənəyə çevrilib, məncə, artıq 5-ci dəfə keçirilib. Əlbəttə ki, bu, hamımızı birləşdirir. İnstitut müəllimlərimi, dostlarımı fərəhlə xatırlayıram və bu yubileydə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna yeni uğurlar arzulayıram. Şadam ki, bu ali məktəbə uzun illərdir mənim mehriban dostum Anatoli Vasilyeviç Torkunov başçılıq edir, institutun inkişafında, dünyanın ən aparıcı ali məktəblərindən biri kimi tanınmasında onun çox böyük xidmətləri var.




**- Sonuncu qısa sual. Prezident Tokayev də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunudur. Bu, Azərbaycan-Qazaxıstan münasibətlərinin inkişafına kömək edir?**

- Bilirsiniz, şadam ki, mən indi məzun kimi Prezident olaraq tək deyiləm. Əlbəttə, biz Kasım-Jomart Kemeleviçlə bir-birimizi lap çoxdan tanıyırıq. Biz həm Qazaxıstanda, həm Azərbaycanda, həm də beynəlxalq tədbirlər çərçivəsində görüşmüşük. Əlbəttə, o, Prezident seçiləndə mən ona zəng vurub təbrik etdim, hər ikimiz təməli Azərbaycan Prezidenti Heydər Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tərəfindən qoyulan uzun illərin mehriban münasibətlərini daha da inkişaf etdirməyə davam edəcəyimiz barədə fikir mübadiləsi apardıq. Yəni biz bu ənənələri davam etdiririk və əminəm ki, gələcəkdə Qazaxıstanla Azərbaycan elə bu cür qarşılıqlı aktiv fəaliyyət göstərəcək.

**- Çox sağ olun.**

- Sağ olun.

❖ ❖ ❖

**- Salam. Birinci kanal. Yeri gəlmişkən, mən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişəm. Biz müəyyən mənada bu gün Sizinləyik.**

- Neçənci ildə?

**- 1998-ci ildə, beynəlxalq jurnalistika fakültəsini. Bizim ilk sualımız bu gün burada keçirilən tədbirlərlə, yəni Valday ilə bağlıdır. Mövzu "Şərqin şəfəqi"dir. Yəni, Şərqin dirçəlişi, Şərq istiqamətinin möhkəmləndirilməsidir. Azərbaycan, Rusiya və Rusiya-Azərbaycan münasibətləri bu prosesdə hansı rol oynayır?**

- Azərbaycan coğrafi cəhətdən Şərqlə Qərb arasında yerləşir. Buna görə də biz həm Şərq ölkələrini birləşdirən beynəlxalq təşkilatlarda, həm də, məsələn, Avropa Şurası kimi təşkilatda iştirak edirik. Təbii ki, coğrafiya geosiyasətə təsir edib və edir. Bu gün Azərbaycan özünün coğrafi vəziyyətindən istifadə edir. Hesab edirəm ki, bu gün biz həm humanitar sahədə, həm nəqliyyat sahəsində, həm də bütün digər sahələrdə Şərq və Qərb ölkələri arasında dialoq qurulmasında müəyyən rol oynayırıq. Rusiya dünyanın ən iri ölkəsidir. Buna görə, əlbəttə ki, təkcə Asiya qitəsində deyil, həm də bütün qlobal dünyada Rusiyanın rolu çox böyükdür. Rusiyanın rolu böyüyür, həm potensialı, həm də gücü artır.

Bizim ikitərəfli münasibətlərimizə gəlincə, bunlar çox müsbətdir, çox yaxşı dinamikaya malikdir, həyatın bütün sahələrini əhatə edir və çox etibarlıdır. Mənim Prezident Vladimir Vladimiroviç Putinlə keçən il 4, bu il 2 şəxsi görüşüm olub. Bu görüşlər ikitərəfli qarşılıqlı fəaliyyətin inkişafına çox ciddi impuls verir və həmçinin bizim regiondakı vəziyyətə müsbət təsir göstərir.

**- Dünyanın quruluşu, Şərqdən baxış. Şərqdən baxdıqda dünya hansı prinsiplər əsasında qurulmalıdır?**

- Fikrimcə, biz hansı tərəfdən baxsaq da, əsas prinsip beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunmasıdır. Təəssüf ki, onlar kobud şəkildə pozulur və bu prinsiplərə hörmətin seçim yanaşması mövcuddur. Azərbaycan beynəlxalq hüququn prinsiplərinə riayət olunmamasından zərər çəkən ölkə kimi, o cümlədən ərazilərimizin Ermənistan tərəfindən işğalı ilə əlaqədar, əlbəttə ki, bütün beynəlxalq tədbirlərdə beynəlxalq hüququn zəruriliyinə təkid edir. BMT-nin Təhlükəsizlik Şurası bəzən qətnamələri bir neçə günə yerinə yetirir, bizə gəldikdə isə, qətnamələr 25 ildən artıqdır ki, kağız üzərində qalır. Bununla da bu aparıcı dünyəvi təsisat müəyyən dərəcədə nüfuzdan salınır. Buna görə də düşünürəm ki, beynəlxalq hüquq dünyadakı vəziyyətin əsas amili olmalıdır. Amma gerçəklik belədir ki, bu, baş vermir. Dünyanın qlobal işlərində Azərbaycan kimi ölkədən çox az şey asılıdır. Buna görə də düşünürəm ki, əsas məsuliyyət dünyanın aparıcı ölkələrinin üzərinə düşür və onlar dünyada sülhün qorunması üçün həmin prinsiplərə riayət etməlidirlər.

**- İndi Sizə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu barədə bir-iki sual vermək istərdim. İnstitutla bağlı hansı xatirələriniz qalıb?**

- Çox xoş xatirələr qalıb. Həyatımın 15 ili institutla bağlıdır. Təhsil, aspirantura, iş, çoxlu dostlar, tanışlar və əlbəttə ki, mənim üçün həm yetkinləşmə, həm də biliklərə yiyələnmək cəhətdən çox vacib olub. Buna görə də mən rəhbərliklə daim əlaqə saxlayıram. Mən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məzunlarının bir neçə il əvvəl Bakıda keçirilən ilk forumunun təşəbbüskarıyam. İndi bu forum artıq daimi fəaliyyət göstərən tədbirə çevrilib. Mən institutun 60 illiyinə həsr olunmuş təntənəli tədbirlərdə iştirak etmişəm, eləcə də 75 illiyi ərəfəsində bütün dostlarımı, kurs yoldaşlarımı, müəllimlərimi bu şanlı yubiley münasibətilə təbrik edirəm.

**- Bəs necə hesab edirsiniz, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu həyatınızda hansı rolu oynayıb? Əgər başqa ali məktəb olsaydı, hər şey başqa cür olardımı?**

- Bilmirəm, demək çətindir necə olardı. Amma əlbəttə, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu çox mühüm rol oynayıb. Çünki orada aldığım biliklər gələcək işimdə həqiqətən mənə çox kömək edib. Mən institutdan getdikdən sonra, müəyyən mənada, peşəmə uyğun olmayan işlə məşğul olurdum. Amma Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda qazandığım biliklər, vərdişlər, o cümlədən xarici dilləri bilməyim artıq Prezident kimi mənə çox gərəkli oldu.

**- Çox sağ olun.**

# İki ildə 6 görüş, 5,8 milyard dollarlıq qarşılıqlı sərmayə

## Prezident İlham Əliyevin Soçi səfəri və Vladimir Putinlə görüşü iqtisadi-ticari əməkdaşlığın gələcək inkişafı üçün möhkəm əsas yaratdı

*Əvvəli 1-ci səh.*

Soçidə liderlər arasında aparılan müzakirələr də strateji əməkdaşlığı daha da möhkəmləndirməklə yanaşı, əlaqələrin bütün sahələrdə dərinləşməsinə, mövcud potensialın daha dolğun reallaşdırılmasına, iqtisadi-ticari əməkdaşlığın inkişafına böyük təkan verəcək.

### Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir

Elə oktyabrın 3-də Soçi şəhərinə səfəri zamanı "Valday" Beynəlxalq Diskussiya Klubunun iclası ərəfəsində Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev bu məsələlərə toxunaraq bildirib ki, iki ölkə arasındakı münasibətlər həyatın bütün sahələrini əhatə edir: "Bizim ikitərəfli münasibətlərimizə gəlincə, bunlar çox müsbətdir, çox yaxşı dinamikaya malikdir, həyatın bütün sahələrini əhatə edir və çox etibarlıdır. Mənim Prezident Vladimir Vladimiroviç Putinlə keçən il 4, bu il 2 şəxsi görüşüm olub. Bu görüşlər ikitərəfli qarşılıqlı fəaliyyətin inkişafına çox ciddi impuls verir və həmçinin bizim regiondakı vəziyyətə müsbət təsir göstərir".

Azərbaycan və Rusiya prezidentlərinin Soçidə keçirilən görüşündə ölkələrimiz arasında siyasi əlaqələrin inkişafı qeyd olunmaqla yanaşı, bir sıra praktik sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb. Bu xüsusda müxtəlif sahələrdə əməkdaşlığı ehtiva edən yol xəritəsi sənədləri diqqətə çatdırılıb.

"Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında da cənab İlham Əliyev ölkələrimiz arasında əlaqələri dəyərləndirərkən ticari-iqtisadi münasibətlərin inkişafında müsbət dinamikanın müşahidə olunduğunu diqqətə çatıdırb: "Hər il əmtəə dövriyyəsi artır. Beş yol xəritəsi çərçivəsində əməkdaşlığın prioritet istiqamətlərinin müəyyən edilməsi, şübhəsiz ki, ticari əlaqələrin daha da genişlənməsinə səbəb olacaq. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir. Ölkəmiz Rusiyada 1,2 milyard dollar, Rusiya Azərbaycanda 4,6 milyard dollar həcmində sərmayə qoyub. Onu da qeyd etmək istərdim ki, sənayeləşmə məsələsində Rusiya bankları bizə çox kömək edir. Onlar iqtisadiyyatın real sektorunda həyata keçirilən layihələr üçün təqribən 1 milyard dollar kredit ayırıblar".

### Hərbi-texniki əməkdaşlıq, 5 milyard dollarlıq müqavilə

İki ölkə arasında hərbi-texniki əməkdaşlıq fəal inkişaf edir. Soçidə dövlət başçıları arasında aparılan danışıqlar zamanı bu istiqamətdə işi davam etdirmək barədə razılıq əldə edilib. Qeyd edilib ki, Azərbaycanın Rusiyadan texnika alması çərçivəsində imzalanmış müqavilələrin məbləği 5 milyard dollar təşkil edir. Bunun 3 milyard dolları artıq reallaşıb.

Əməkdaşlığın mühüm istiqamətlərindən biri də nəqliyyat sahəsidir və bu istiqamətdə infrastrukturun təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Hazırda Samur çayı üzərində avtomobil körpüsünün tikintisi davam etdirilir və bu ilin sonunadək başa çatdırılacaq. Eyni zamanda, sərhəd-buraxılış məntəqələrinin inkişafı layihələrinin sinxronlaşdırılması məsələsi müzakirə olunur və bu sahədə xüsusi yol xəritəsi hazırlanır.

Onu da vurğulayaq ki, Azərbaycan həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" dəhlizlərində iştirak edən yeganə ölkədir. Prezident İlham Əliyev də bu məsələyə xüsusi olaraq toxunub və qeyd edib ki, artıq işə düşən "Şimal-Qərb Beynəlxalq nəqliyyat dəhlizi" vasitəsilə Rusiyadan yüklər Azərbaycan ərazisindən keçməklə həm cənub, həm də qərb istiqamətində göndərilir. 2018-ci ildə "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi" vasitəsilə daşınmış yüklərin həcmi əvvəlki ildəkindən 8 dəfə çox olub. Həcmlər hələlik böyük olmasa da, dinamika güclü təsir bağışlayır.

Prezident İlham Əliyevin Rusiyaya səfərinin iqtisadi aspektləri barədə danışan İqtisadiyyat naziri, Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev də qeyd edib ki, iki ölkənin əlaqələri möhkəm dostluğa, mehriban qonşuluğa, etibarlı tərəfdaşlığa və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində əlaqələr strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf edir, liderlərin müntəzəm görüşləri dövlətlərarası münasibətlərə yüksək dinamizm verir. Siyasi əlaqələrin strateji xarakteri, dostluq münasibətləri iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli zəmin yaradır: "Azərbaycanın mehriban qonşu, dost, etibarlı və mühüm tərəfdaş olan Rusiya ilə əlaqələri yüksək səviyyədədir, siyasi, iqtisadi, humanitar, hərbi-texniki və s. sahələrdə əməkdaşlığımız genişlənir. Əlaqələrimizin inkişaf dinamikası və əldə edilən nəticələr çox müsbətdir. Bütün bunların arxasında strateji əməkdaşlıq, mühüm işlər, önəmli layihələr dayanır və yüksək göstəricilərdə əksini tapır. Azərbaycan Prezidentinin Soçi şəhərinə işgüzar səfəri xüsusi əhəmiyyət kəsb edir. Aparılan müzakirələr Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığının gələcək inkişafı üçün möhkəm əsas yaradır".

### Bu il ticarət dövriyyəsi 3 milyard dollara çatacaq

Cənab İlham Əliyevin ötən ilin sentyabrında Rusiyaya rəsmi səfəri çərçivəsində imzalanmış Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planında əks olunan 5 yol xəritəsi iqtisadi əlaqələrimizin genişlənməsinin mühüm istiqamətlərini müəyyən edir.

Nazir Şahin Mustafayev də qeyd edir ki, bu yol xəritələri ticarət, nəqliyyat, Azərbaycan ərazisində birgə istehsalın yaradılması, büdcə-vergi sektorunun rəqəmsallaşdırılması üzrə qarşılıqlı fəaliyyəti və humanitar sahədə əməkdaşlığı nəzərdə tutur. Yol xəritələrində ticarət əməkdaşlığının daha da dərinləşməsi məsələlərinə xüsusi yer ayrılır. Bununla yanaşı, Azərbaycan və Rusiya arasındakı sərbəst ticarət haqqında saziş ticarət əməkdaşlığının daha da genişləndirilməsi üçün əlverişli imkanlar yaradır.

Məhz bunun nəticəsidir ki, ötən il iki ölkənin ticarət dövriyyəsi 20 faiz, bu ilin yanvar-avqust aylarında isə 24 faiz artıb. Ticarətin həcmi 2,5 milyard dollar təşkil edib və bu sahədə həyata keçirilən ardıcıl, sistemli tədbirlər, artım dinamikası 2019-cu ildə ticarət dövriyyəsinin 3 milyard dollara çatacağını söyləməyə tam əsas yaradır.

Bütün bunlarla yanaşı, ölkəmizdə Rusiya ilə birgə layihələr reallaşdırılır. "SOCAR Polymer" layihəsi, Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin yaradılması, Gəncə Avtomobil Zavodunun Rusiyanın "KamAZ" və "Ural" zavodları ilə əməkdaşlığı, "Azərmaş" və "QAZ" şirkətləri arasında birgə layihələr, helikopterlərin təmiri və texniki xidmət mərkəzinin, Hacıqabulda izolyasiya materialları istehsalının təşkili layihələri Azərbaycan-Rusiya sənaye-investisiya əməkdaşlığının önəmli nümunələridir. İki ölkə arasında ölkəmizdə kənd təsərrüfatı texnikasının, vaqonlar üçün ehtiyat hissələrinin və digər sənaye məhsullarının istehsalının təşkili barədə də razılıq əldə edilib.

Eyni zamanda Azərbaycanla Rusiya arasında ticarətin müsbət artım templərini daha da gücləndirmək məqsədilə tədbirlər davam etdirilir. Rusiyada Azərbaycanın Ticarət Nümayəndəliyi, Həştərxan şəhərində Azərbaycan İş Mərkəzi, Yekaterinburq şəhərində Azərbaycan "Şərab Evi" fəaliyyət göstərir və iş adamları arasında birbaşa ticarət əlaqələrinin genişlənməsinə töhfə verir. Həmçinin Moskva şəhərində Azərbaycan məhsullarının geniş çeşiddə təqdim olunduğu "Azərbaycan nemətləri" mağazası açılıb. Rusiyanın digər şəhərlərində də bu cür mağazaların açılması istiqamətində işlər aparılır.

İki ölkənin iş adamları arasında biznes forumları, işgüzar görüşlər keçirilir, Rusiyaya ixrac missiyaları təşkil olunur, Azərbaycan məhsulları bu ölkədə keçirilən beynəlxalq sərgilərdə nümayiş etdirilir. Artıq Azərbaycan məhsulları Rusiyanın iri mağazalar şəbəkələrində satılır və daha geniş istehlakçı dairəsinə təqdim edilir.

Bir sözlə, Azərbaycan ilə Rusiya arasında ticarətin yüksək templərlə artması strateji əməkdaşlığın mühüm göstəricisi olmaqla, cənab İlham Əliyevin xarici iqtisadi əlaqələrin genişləndirilməsi, qeyri-neft ixracının stimullaşdırılması istiqamətində qəbul etdiyi mühüm qərarların, görülən sistemli və ardıcıl işlərin məntiqi nəticəsidir.

Müstəqil xarici siyasət kursu yeridən ölkə kimi Azərbaycan Rusiyanı mühüm tərəfdaşlardan biri, mehriban dost, qonşu hesab edir.

Bütün bunlar bir daha təsdiq edir ki, bu gün Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, transmilli layihələrin reallaşdırıcısıtək qlobal təhlükəsizlik məsələlərinə öz töhfəsini verən fəal aktor və regional güc kimi qəbul edilməkdədir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# *Nida işarəsi:*
# Böyük Qələbənin parolu

*Əvvəli 1-ci səh.*

Cənab Prezidentin nitqində Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi sahəsində nailiyyətləri əks etdirən mülahizələr, faktlar və rəqəmlər bu ölkə ilə çoxcəhətli əlaqələrin reallıqlarını və perspektivlərini dolğun surətdə əks etdirir.

Xüsusən, nəqliyyat sahəsində həyata keçirilən ortaq layihələrin həm Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin, həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarında eyni səviyyədə *yüksək qiymətləndirilməsi ölkəmizin rəhbərinin apardığı siyasətin yüksək səviyyədə dəstəkləndiyini və qəbul olunduğunu nümayiş etdirmişdir.*

Dünyada Azərbaycanın beynəlxalq layihəsi kimi tanınan və ölkə Prezidentinin xüsusi əhəmiyyət verdiyi, böyük uzaqgörənliklə həyata keçirdiyi Şimal-Şərq və Şimal-Qərb nəqliyyat dəhlizlərinin “Valday” kimi nüfuzlu beynəlxalq forumda Rusiya Prezidenti Vladimir Putin tərəfindən aşağıdakı şəkildə yüksək qiymətləndirilməsi aparılmış siyasətin nə qədər uzaqgörən və əhəmiyyətli olduğunu təsəvvür etməyə imkan verir: “Şimal-Cənub ticarət marşrutu bizim ərazimizdən Xəzər regionundan keçməklə, Avropa ölkələrindən Mərkəzi Asiya dövlətlərinə, İran və Hindistana uzanır. Digəri (Şimal-Qərb - İ.H.) Avropa-Qərbi Çin marşrutu Baltik dənizindəki Rusiya limanlarını Sarı dənizdəki limanlarla birləşdirəcək.

Prezident İlham Əliyevin “Valday” forumunda ölkəmizin nəqliyyat-logistika siyasətinin real uğurları, beynəlxalq tranzit layihələrinin faydaları haqqındakı fikirləri qarşılıqlı razılaşma və etimada əsaslanan Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin dinamik surətdə inkişaf etdiyini və böyük perspektivə malik olduğunu əyani surətdə əks etdirir. Bu mənada Prezident İlham Əliyevin “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında səsləndirdiyi aşağıdakı fikirlər iqtisadi əhəmiyyəti ilə yanaşı, həm də siyasi məzmun daşıyaraq dövlətlərarası əlaqələrin inkişafının perspektivlərini də aydın surətdə əhatə edir: “Bizim əməkdaşlığımızın mühüm istiqamətlərindən biri də nəqliyyat sahəsidir. 2018-ci ildə Şimal-Cənub dəhlizi vasitəsilə daşınmış yüklərin həcmi 8 dəfə çox olub. Həcmlər hələlik böyük deyil, lakin dinamika güclü təsir bağışlayır. Onu da qeyd etmək istərdim ki, Şimal-Qərb dəhlizi də işə düşüb, Rusiyadan yüklər Azərbaycan ərazisindən keçməklə, həm cənub, həm də qərb istiqamətinə göndərilir. Bu, çox cəhətdən onun sayəsində mümkün olur ki, biz tarif siyasətimizi razılaşdırmışıq və son vaxtlar Azərbaycanda müasir nəqliyyat infrastrukturuna böyük sərmayə yatırılıb”.

Eyni zamanda, Prezident İlham Əliyevin çıxışında Rusiya dövlət başçısının nitqindəki *ortaq nəqliyyat-tranzit layihələrinə dair irəli sürdüyü “körpü” siyasətinə dəstək verməsi Azərbaycanın Şərq ilə Qərb arasındakı oynadığı mühüm rolunun və daşıdığı funksiyaların obyektiv təqdimatı ilə birlikdə, həm də gələcək perspektivlərinə də işıq salır.* Dövlət başçımızın Beynəlxalq Diskussiya Klubunda “Vladimir Vladimiroviçin nəqliyyat layihələrinin təkcə ticarətin inkişafına kömək etməməsi, bu istiqamətdə bizim ölkəmizdən keçən Şimal-Cənub və Şimal-Qərb dəhlizləri məhz beynəlxalq əməkdaşlığın genişləndirilməsi və risklərin azaldılması istiqamətində addımlardır, layihələrdir” - fikri ölkəmizin körpü siyasətinin mahiyyətini, əhəmiyyətini və gələcəyini real surətdə əks etdirir.

Göründüyü kimi, **“Valday” forumu Azərbaycan-Rusiya münasibətlərinin daha da inkişaf etdirilib möhkəmləndirilməsi baxımından əhəmiyyətli bir platforma olduğunu** təsəvvür etməyə əsas verir. Davamlı ənənələrə malik olan Azərbaycan-Rusiya əlaqələrinin inkişaf etdirilməsi siyasətinə Prezident İlham Əliyevin xüsusi diqqət yetirməsi bütün yönləri ilə hər iki ölkənin xeyrinə olmaqla yanaşı, həm də bu ölkə ilə münasibətlərin regionda və beynəlxalq aləmdə sülhün və tarazlığın qorunub saxlanılmasında, əməkdaşlıq perspektivlərinin genişləndirilməsində roluna verdiyi qiymətin ifadəsidir. Azərbaycan-Rusiya münasibətlərinin möhkəmləndirilməsi müstəqil dövlətimizin mehriban qonşuluq və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq siyasətinin növbəti addımlarıdır. Bu mənada “Valday” forumu ölkələrarası əlaqələrin yeni mərhələyə çatdırılmasına və daha da genişləndirilməsinə yeni imkanlar açmışdır.

Bütün bunlarla bərabər, “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI iclasının plenar sessiyası **Dağlıq Qarabağ münaqişəsi ətrafında son vaxtlar meydana çıxmış mübahisəli məqamlara dair Prezident İlham Əliyevin səsləndirdiyi kəskin və məntiqli bəyanatı ilə tarixə daxil olmuşdur.** Qeyd etmək lazımdır ki, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağa səfəri zamanı Xankəndidəki görüşü zamanı “Qarabağ Ermənistanındır, nöqtə” şəklində ifadə olunmuş məsuliyyətsiz fikirlər haqqında “Valday” Beynəlxalq Diskussiya Klubu kimi mötəbər bir forumun tribunasından beynəlxalq ictimaiyyət qarşısında Prezident İlham Əliyev tərəfindən səsləndirilmiş sərrast bəyanat həmin məsələyə münasibətin obyektiv siyasi və diplomatik cavabından ibarətdir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI iclasının plenar sessiyasındakı aşağıdakı bəyanatı real gerçəkliyin ifadəsi olmaqla bərabər, həm də ölkə rəhbərimizin siyasi idrakının dərinliyini, intellektual düşüncəsinin sərrastlığını, müdriklik və hazırcavablığını aydın surətdə əks etdirir: “Birincisi, yumşaq desək, bu (Qarabağın Ermənistana aid olması xülyası - İ.H.), yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi!”

Həqiqətən də, Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Qarabağın Ermənistana aid olmadığını artıq dünya ictimaiyyəti çoxdan bilir. Ona görə də “Valday” Beynəlxalq Diskussiya Klubunda Ermənistan rəsmisinin mülahizələrinin yalan adlandırılması heç kəsdə təəccüb doğurmamışdır. Çünki Ermənistan tərəfin XX əsrin səksəninci illərinin sonu, doxsanıncı illərinin əvvəllərində, Dağlıq Qarabağ münaqişəsinin başlanğıc mərhələsində Azərbaycanın informasiya blokadasına salınması fürsətindən istifadə edərək birtərəfli qaydada Dağlıq Qarabağın ərazi mənsubiyyəti ilə əlaqədar reallıqları qəsdən təhrif edib, o yerin Ermənistana məxsusluğu barədə yalan məlumatlar yaydığı dövrlər arxada qalıbdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vaxtilə apardığı ardıcıl və düşünülmüş siyasi-ideoloji təbliğat işi Dağlıq Qarabağla əlaqədar beynəlxalq ictimaiyyətin obyektiv şəkildə məlumatlandırılması ilə nəticələnmişdir. Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki məqsədyönlü fəaliyyəti də dünya ictimaiyyətində bu məsələ ərtafında aydın qənaət formalaşdırmışdır.

Azərbaycan alimlərinin müstəqillik illərində tarix, arxeologiya, etnoqrafiya, antropologiya, folklor sahəsində apardığı tədqiqatlar da birmənalı şəkildə Qarabağın tarixi Azərbaycan torpağı olduğunu isbat etmişdir. Beynəlxalq sənədlərdə də Qarabağ Azərbaycan ərazisi kimi öz əksini tapmışdır. Ermənilərin Dağlıq Qarabağda gəlmə əhali olduğunu da tarixi faktlar və çoxsaylı arxiv sənədləri təsdiq edir. Azərbaycan Milli Elmlər Akademiyasında 2018-ci ildə Azıx mağarası ilə əlaqədar on beşdən çox ölkənin tanınmış alimlərinin iştirakı ilə keçirilmiş beynəlxalq elmi konfransda bu ərazilərdə tarixin ən qədim çağlarında məskunlaşmış insanların aborigen olaraq indiki azərbaycanlıların əcdadları olması qənaəti bir daha təsdiq edilmişdir. Artıq hər kəsə bəllidir ki, ermənilər çar Rusiyasının Qafqazı işğalçılıq siyasətinə uyğun olaraq Dağlıq Qarabağ ərazilərinə köçürülmüş və regionda bundan sonrakı fitnə-fəsadları törətmək missiyasını həyata keçirmişlər.

Bu mənada Dağlıq Qarabağın Ermənistana aid olmasına dair mülahizələr bu ölkənin rəhbərlərinin növbəti yalanından başqa heç nə deyildir. Ermənistan adlandırılan dövlətin Qafqazda süni yolla 1918-ci ildə yaradıldığını nəzərə alsaq, onda erməni tərəfinin Azərbaycanın digər əraziləri kimi, Dağlıq Qarabağa da nə vaxtdan sahib çıxmaq istədikləri tam aydın olar. Dağlıq Qarabağı Ermənistana aid etmək bu ölkənin işğalçılıq niyyətinin daha bir ifadəsidir. Bu isə nə Azərbaycan xalqı, nə də beynəlxalq ictimaiyyət tərəfdən qəbuledilməz olan xam xəyaldan başqa bir şey deyildir. “Qarabağ Ermənistandır” demək tam mənası ilə ağ yalandır.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Valday” Beynəlxalq Diskussiya Klubunda həmin fikrin yalan olduğunu bəyan etməklə Ermənistan rəhbərliyinin ənənəvi yalançı mövqeyini bir daha beynəlxalq ictimaiyyət qarşısında ifşa etmişdir.*

Bundan başqa, Nikol Paşinyanın sərsəm “Qarabağ Ermənistandır” mülahizəsinin sonunda işlətdiyi nöqtə işarəsi siyasi cəhətdən də özünün düşündüyünün əksinə olaraq onun xeyrinə deyildir. Çünki *nöqtə qrammatik cəhətdən keçmiş, arxada qalmış, nəql edilmiş bir fikrin sonunda işlədilən işarədir.* **Bu mənada nöqtə işarəsi nəinki Qarabağın Ermənistana aid olmasının dünənki xülya olduğunu göstərir, hətta Paşinyanın yalanının da təzə əhvalat olmayıb, özünəqədərki Ermənistan rəhbərləri tərəfindən istifadə edilmiş uydurma bir vasitə olduğunu nəzərə çarpdırır.**

Görsənən bundan ibarətdir ki, Ermənistan xalqının gözünü yalan vədlərlə qamaşdırmağa çalışan Nikol Paşinyan erməni xalqı üçün başabəla oyunçular olmuş Sarkisyan və Koçaryanın istinad etdiyi durğun nöqtədə ilişib qalmışdır.

*Bu, nöqtə işarəsinin ifadə etdiyi işğalçı hərbi-siyasi mətləb Ermənistanı böhranın dərin burulğanına salmış nöqtədir!*

*Ermənistan baş naziri Nikol Paşinyanın yürütdüyü məntiqsiz nöqtə siyasəti bütövlükdə erməni xalqının durğunluq nöqtəsindən çıxmasına imkan vermir!*

*Nöqtə işarəsindən yaxa qurtara bilməməsi Nikol Paşinyanı özündən əvvəlki başabəla rəsmilərin acı taleyindən uzağa apara bilməz!*

*Əgər Nikol Paşinyan doğrudan da Ermənistanı düşdüyü ağır böhran vəziyyətindən qurtarmaq və münaqişəni həll etməyə çalışmaq istəyirsə, nöqtə işarəsinin məhdud mühasirəsindən çıxmağı bacarmalı və özünə başqa bir durğu işarəsi tapmalıdır!*

*Əks halda, səsləndirdiyi qeyri-obyektiv və məsuliyyətsiz bəyanat Nikol Paşinyanın siyasi karyerasına nöqtə qoya bilər!*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Qarabağ Azərbaycandır” bəyanatını həm əlahəzrət tarix, həm də beynəlxalq sənədlər təsdiq edir!

**“Qarabağ Azərbaycandır” fikri isbata ehtiyacı olmayan aksiomdur!**

Görkəmli Azərbaycan şairi Molla Vəli Vidadinin vaxtilə yazdığı kimi, “külli-Qarabağın abı-həyatı, nərmünazik bayatıdır, bayatı”. Mühüm ədəbi-tarixi qaynaqlar və zəngin yaddaş materialları əsasında yazılmış məşhur “Qarabağnamə”lər bu qədim Azərbaycan torpağının möhürləridir!

Azərbaycan dövləti ilk növbədə dialoq yolu ilə, beynəlxalq hüquq normaları əsasında Dağlıq Qarabağı işğaldan xilas etmək uğrunda mübarizə aparır və sülh danışıqlarına sadiqdir. Lakin dövlətimiz və Prezidenti ilə həmrəy olan Azərbaycan xalqı istənilən halda özünün tarixi və əzəli ərazisi, doğma torpağı olan Dağlıq Qarabağı işğaldan azad etmək üçün lazım olan bütün vasitələrdən istifadə etməyə hazırdır.

Yaxın dövr Azərbaycan tarixinin şanlı səhifələrinə çevrilmiş Lələtəpə zəfəri, Qızılqaya qələbəsi müstəqil Azərbaycan Respublikasının Dağlıq Qarabağ uğrunda apardığı ədalətli mübarizədə nələrə qadir olduğunu parlaq şəkildə nümayiş etdirir!

Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Valday” Beynəlxalq Diskussiya Klubunun mötəbər kürsüsündən bəyan etdiyi **“Qarabağ Azərbaycandır” - bəyanatı Qarabağ haqqında həqiqətlərin bir daha səsləndirilib ictimai rəydə möhkəmləndirilməsi deməkdir.**

**Prezident İlham Əliyevin bəyanatında ifadə olunan “nida işarəsi” isə Azərbaycan xalqının Dağlıq Qarabağ uğrunda mübarizəyə həmişə hazır olduğunu ifadə edən həyəcan təbilidir!**

Qrammatik cəhətdən hiss-həyəcan bildirən nida işarəsi həm də çağırış, səfərbərlik düşüncəsini də əks etdirir.

**Azərbaycan xalqı Prezident İlham Əliyevə məxsus “Nida işarəsi”nin çağırışlarına hər zaman hazırdır!**

Nəhayət, bütün dünya bilir ki, **nida işarəsi qələbə sevincinin də paroludur.** Ona görə də Prezident İlham Əliyevin “Qarabağ Azərbaycandır” bəyanatının sonunda işlətdiyi “Nida işarəsi” Azərbaycan üçün Böyük Qələbənin parolu və anonsudur.

*On milyonluq xalqımızın hər bir sıra nəfəri, o cümlədən də kirpiklərini qırpmadan Vətən torpaqlarının keşiyində cəsarətlə dayanan vətənpərvər Azərbaycan əsgərlərindən hər biri nida işarəsidir və Ali Baş Komandanın “Marş, irəli!” əmrini gözləyir.*

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***

# İlham Əliyevin növbəti zəfəri
## Və ya süni nöqtəyə qarşı qüdrətli NİDA

“Valday” Beynəlxalq Diskussiya Klubunun Soçidə keçirilmiş XVI illik iclası maraqlı müzakirələrlə yadda qaldı. Dünyanın müxtəlif siyasi dairələrinin diqqət mərkəzində olan iclasın ən maraqlı məqamı isə Prezident İlham Əliyevin Ermənistanın baş naziri N.Paşinyanın avqustun əvvəllərində dediyi sözlərə verdiyi tutarlı və kəsərli “Qarabağ Azərbaycandır və nida işarəsi” cavabı oldu.



### Azərbaycan-Rusiya münasibətləri dinamik yüksəliş mərhələsindədir

Prezident İlham Əliyevin Soçi səfəri Azərbaycan-Rusiya əlaqələrinin yüksək səviyyədə olmasını növbəti dəfə nümayiş etdirdi. Azərbaycan və Rusiya prezidentlərinin son illərdəki rəsmi və işgüzar səfərləri iki ölkə arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın daha da genişlənməsinə güclü təkan verib. Bu səfərlər zamanı ikitərəfli iqtisadi-ticari əlaqələrin daha da gücləndirilməsini, qarşılıqlı informasiya mübadiləsini, hərbi-texniki və təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsini nəzərdə tutan mühüm sazişlər imzalanıb, yeni əməkdaşlıq tellərinin əsası qoyulub. Beləliklə, bir vaxtlar münasibətlərdə mövcud olmuş soyuqluğa baxmayaraq bu gün əlaqələr artıq strateji səviyyəyə yüksəlib. Mübaliğəsiz demək olar ki, bu gün Azərbaycan-Rusiya münasibətləri dinamik yüksəliş mərhələsindədir.

Azərbaycan və Rusiya prezidentlərinin səmimi görüşü bunu bir daha təsdiq etdi. Görünən odur ki, prezidentlərin müntəzəm görüşləri dövlətlərarası münasibətlərə yüksək dinamizm verir. Siyasi əlaqələrin strateji xarakteri, Azərbaycan və Rusiya prezidentlərinin dostluq münasibətləri iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli zəmin yaradır.

“Valday” Beynəlxalq Diskussiya Klubunun iclası ərəfəsində Rusiyanın “Rossiya” və “Birinci” televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev Rusiya ilə münasibətləri şərh edərkən deyib: “Bizim Rusiya ilə münasibətlərimiz hər hansı xarici siyasi gündəlikdən azaddır. Bu münasibətlər zamanın sınağından çıxıb. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri adlandırır. Bu, həqiqətən də belədir. Çünki biz həm qonşuyuq, həm də mehriban dostlarıq. Son vaxtlar bizim münasibətlərimiz xeyli səmərəli və keyfiyyətli olub. Biz həm beynəlxalq meydanlarda əməkdaşlıq edir, həm də bir-birimizi dəstəkləyirik”.

### Küncə sıxışdırılan Paşinyan

Bir sözlə, Cənubi Qafqazın lideri olan Azərbaycanın Rusiya ilə münasibətlərində yeni keyfiyyət dəyişiklikləri baş verməkdədir. Bu mənada Azərbaycan-Rusiya münasibətlərinin hazırkı səviyyəsi geostrateji baxımdan da mühüm əhəmiyyət kəsb edir. Çünki artıq təsdiq olunub ki, Azərbaycan Rusiyanın həm strateji, həm də Cənubi Qafqazdakı əsas siyasi-iqtisadi tərəfdaşıdır. Bu reallıq Avrasiya İqtisadi İttifaqının Yerevanda keçirilmiş sammiti fonunda da özünü göstərdi. Belə ki, yürütdüyü siyasət səbəbindən ənənəvi tərəfdaşları rəsmi Yerevana olan inamlarını tam itiriblər. Paşinyanın özü isə digər dövlət başçıları tərəfindən, ümumiyyətlə, ciddi qəbul olunmur.

Məsələn, Paşinyan ev sahibi olsa da, onun Rusiya Prezidenti Vladimir Putinlə görüşü son anda baş tutub. Rəsmi Yerevan bu görüşə çoxdan hazırlaşırdı və onun yüksək səviyyədə keçirilməsi üçün diplomatik kanalları işə salmışdı. Ermənistan mediası da təsdiq edir ki, rəsmi Yerevan bu görüşün baş tutması üçün çox ciddi səylər göstərib, görüş üçün Rusiya tərəfi ilə dəfələrlə əlaqə yaradılıb və xahişlər olunub.

Vladimir Putinlə N.Paşinyan arasında görüş günün sonunda, özü də sammit çərçivəsində baş tutub. Bu isə Ermənistana və onun baş nazirinə münasibətin göstəricisidir. Xatırladaq ki, bundan öncə də ABŞ-a səfəri öncəsi Paşinyanın Donald Trampla görüşəcəyini piar edən Ermənistan mediası baş nazirin yalnız ABŞ Prezidenti ilə selfi çəkdirməyə nail olduğundan məyusluğunu gizlədə bilməmişdi.

Rusiyanın xarici işlər naziri Sergey Lavrovun “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında Dağlıq Qarabağ prosesinin nizamlanması haqqında sualı cavablandırarkən söylədiyi fikirlər də Rusiya-Ermənistan münasibətlərində yaranmış soyuqluğun göstəricisidir. Bunun başlıca səbəbləri qeyd etdiyim ki, bir tərəfdən Paşinyanın qeyri-konstruktiv siyasət, digər tərəfdən də Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsi, regionun aparıcı dövləti kimi Azərbaycanın nüfuzunun daha da yüksəlməsi və dünyada etibarlı, səmimi tərəfdaş imici qazanmasıdır.

### İlham Əliyevi zal alqışlayırdı

Beləliklə, “Valday” Beynəlxalq Diskussiya Klubunun illik iclası bəzi həqiqətlərə növbəti dəfə işıq saldı. İclasın kulminasiyası isə qeyd etdiyim kimi, Prezident İlham Əliyevin Paşinyana verdiyi cavab oldu. Xatırladaq ki, Paşinyanın çıxışı erməni auditoriyası qarşısında olmuşdu. Amma İlham Əliyev onun cavabını Bakıda deyil, ölkədən xaricdə - Rusiya Prezidenti Vladimir Putinin, İordaniya Kralı II Abdullanın, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin, Filippin Prezidenti Rodriqo Roa Dutertenin və bir çox digər siyasətçilərin iştirak etdikləri mötəbər tədbirdə verdi. Ona görə bu cavab nəinki ermənilərə, eyni zamanda onların himayədarlarına da sərt və tutarlı cavab kimi tarixə düşdü.

Təsadüfi deyil ki, Rusiyanın nüfuzlu yazıçısı, tanınmış ziyalı, siyasi və ictimai xadim, İzborsk klubunun sədri və həmtəsisçisi, “Zavtra” qəzetinin baş redaktoru Aleksandr Proxanov Azərbaycan Prezidentinin çıxışını şərh edərkən bildirib ki, İlham Əliyevi zal alqışlayırdı.

Ümumiyyətlə, Ermənistanın ifşası ilə bağlı fəaliyyət daimi olmalıdır. Prezident İlham Əliyev “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı zamanı bunu yüksək siyasi-diplomatik peşəkarlıqla etdi. Bu, bütün Azərbaycan xalqının ürəyindən xəbər verən bir çıxış idi. Azərbaycan Prezidentinin Soçidə səsləndirdiyi bütün fikirlər dünya ictimaiyyətinə mühüm mesaj oldu. İlham Əliyev ölkəmizin və xalqımızın maraqlarını qətiyyətlə qorudu. Azərbaycanın üzləşdiyi problemin əsl mahiyyətini dünya ictimaiyyətinə çatdırdı və haqqın bizim tərəfimizdə olduğunu yüksək diplomatik peşəkarlıqla əsaslandırdı. Bu, işğalçı ölkə rəhbərliyinə yerində verilmiş layiqli cavab idi. Beləliklə, “Qarabağ Azərbaycandır və nida” cavabı işğalçı Ermənistana vurulan diplomatik zərbə kimi rəsmi Yerevanın danışıqlar prosesində qeyri-konstruktiv niyyət və planlarını alt-üst etdi.

***Nəsib MƏHƏMƏLİYEV,***
***Milli Məclisin deputatı***

# *Məşhur jurnalist Arkadi MAMONTOV:* “Bizim Prezident Vladimir Putinin İlham Əliyevlə dostluq etməsi təsadüf deyil”

*Əvvəli 1-ci səh.*

Təsadüfi deyil ki, bizim Prezidentimiz Vladimir Putin İlham Əliyevlə dostluq edir, onunla bərabərhüquqlu ünsiyyət saxlayır. Onlar, necə deyərlər, eyni dalğadadırlar. Daha bir məqam: yayda Bakıda keçirilən “JARA” festivalı hamıya məlumdur. Sizin dadlı meyvələr, tərəvəzlər də öz yerində.

Mənim üçün, məsələn, Bakı haqqında Azərbaycan sənədli kino istehsalçıları tərəfindən çəkilmiş sənədli filmi görmək maraqlı olardı. Müstəqillik illəri ərzində bu şəhərdə nələr baş verib, o, necə dəyişib? Deyirlər ki, Bakı Şərqin əsl mirvarisinə çevrilib.

Bizim həmyerlilərimizin necə yaşadıqlarını bilmək maraqlı olardı. Yeri gəlmişkən, mən bilirəm ki, azərbaycanlıların əksəriyyəti rusca aksentsiz danışır. Bu, əladır. Bakı beynəlmiləl şəhərdir, mən keçən əsrin 90-cı illərində sizdə olmuşam. Çox xoş xatirələrim qalıb. Ona görə, əgər Rusiya televiziyasına belə filmlər çıxsaydı, bu, çox yaxşı olardı.

Əvvəllər, sovet dövründə sənədli kinonun sistemi vardı, Bakı, Kiyev, Minsk və başqa şəhərlərdə ittifaq kinostudiyaları vardı. Hər respublikanın kinostudiyası həmin respublikanın həyatı haqqında silsilə sənədli filmlər təqdim edirdi. İnsanlar bir-biri ilə bağlı idi. Bu, başqa respublikaların nümayəndələrinə hörmət, beynəlmiləlçilik, bir-birinin adətlərinə və mədəniyyətinə hörmət tərbiyə edirdi. İndiki kimi gərginlik yox idi. Moskvada, Novosibirsk, İrkutsk və başqa şəhərlərdə həyat haqqında rus filmlərini göstərmək də maraqlı olardı.



Azərbaycan və Rusiya televiziya studiyaları arasında mübadilə lazımdır. Deyək ki, Azərbaycan kanalında Rusiya haqqında, Rusiyada isə Azərbaycan haqqında veriliş yayımlanır.

**- Müəyyən layihələrin reallaşdırılması üçün Sizi Bakıya dəvət etsələr, gələrdinizmi?**

- Əlbəttə, məmnuniyyətlə. Məsələ yalnız həmin səfərin tarixinin razılaşdırılmasından asılıdır (gülümsəyir - redaksiya).

**- Bəzən belə fikirlər səslənir ki, Rusiya ilə Azərbaycan arasında informasiya əməkdaşlığının dərinləşməsi üçün hər iki ölkəni birləşdirən hansısa bir ciddi media qurumu yaratmaq lazımdır...**

- Bilirsiniz, belə məsələlər bizim ölkələrimizin rəhbərliyi səviyyəsində həll edilir. Amma, əlbəttə, güclü Rusiya-Azərbaycan informasiya agentliyi yaratmaq maraqlı olardı, həmin agentlik Rusiyadan və Azərbaycandan çox yüksək səviyyədə qarşılıqlı xəbərlər verər, telekörpülər yaradardı.

Rusiya və Azərbaycan - müxtəlif və müstəqil dövlətlərdir. Mən bu dövlətləri yenidən birləşməyə çağırmıram. Amma biz qonşularıq, biz iqtisadi cəhətdən indi də bağlıyıq, yaxın gələcəkdə də bağlı olacağıq. Yaşlı nəsil yaxşı xatırlayır ki, biz vaxtilə bir ölkənin tərkibində olmuşuq. Mədəni əlaqələri, informasiya əlaqələrini kəsmək olmaz. Bu, qarşıdakı illərdə yarana biləcək çətinliklərə bizim hamımızın sinə gərib dayanmağımıza imkan verəcək.

# *“Kommersant” qəzeti:* “Prezident Vladimir Putin Yerevana səfərindən üç gün sonra Prezident İlham Əliyevlə görüşməyi zəruri hesab edib”

“Kommersant” qəzetində Azərbaycanın Dağlıq Qarabağ regionunda baş verən son hadisələrə həsr edilmiş “Burada iki nöqtə ola bilməz” sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan-Azərbaycan münaqişəsi zonasında vəziyyətin kəskinləşməsi qeyd edilir. Prezident İlham Əliyev “Valday” klubunun iclasındakı çıxışında Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” sözlərinə cavab olaraq deyib: “Qarabağ Azərbaycandır və nida işarəsi” RF Xarici İşlər naziri Sergey Lavrov Nikol Paşinyanın bu sözlərini kəskin tənqid edəndən sonra Ermənistan xarici işlər nazirliyində xəbərdarlıq ediblər ki, vasitəçilər “birtərəfli qiymətləndirmələr”dən çəkinməlidirlər.

Məqalə müəlliflərinin fikrincə, Dağlıq Qarabağ münaqişəsi zonasında yeni eskalasiyanın başlanmasına səbəb Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 5-də Stepanakertə səfəri zamanı söylədiyi və böyük hay-küy doğurmuş “Arsax (Qarabağ) Ermənistandır və nöqtə” sözləri olub.

Qəzet yazır ki, Paşinyan qondarma “Dağlıq Qarabağ Respublikası”nın paytaxtında 1992-ci ildə həlak olmuş “Qarabağ müharibəsi qəhrəmanı”, “Azadlıq ordusu”nu yaradanlardan biri olmuş Leonid Azqaldyanın sözlərini təkrar edib. Ermənistan rəhbərliyinin nümayəndələri son vaxtlara qədər Leonid Azqaldyandan sitat gətirməyə üstünlük verir, BMT Təhlükəsizlik Şurasının 90-cı illərin əvvəlində Qarabağa dair qəbul etdiyi dörd qətnaməyə etinasızlığa görə öz opponentləri tərəfindən təqsirləndirilmək üçün əsas verməməyə çalışırdılar.

Materialda Prezident Vladimir Putinin Yerevana səfərinin yekunlarını və Avrasiya Ali İqtisadi Şurasının iştirakçıları olan dövlət başçılarının görüşündə iştirakı şərh edilərək, erməni politoloqu Beniamin Matevosyanın sözləri sitat gətirilir. Matevosyan Ermənistan KİV-ə müsahibəsində deyib: “Nikol Paşinyanın Vladimir Putinlə “Dvin” mehmanxanasının restoranında, habelə Yerevanda, Rusiya Prezidentinin Ermənistanın ikinci prezidenti Robert Koçaryanın arvadı Bella Koçaryan ilə görüşdən sonra gəldiyi Zvartnos aeroportunda on dəqiqəlik görüşləri yalnız protokol xarakterli foto və videoçəkilişlərlə məhdudlaşıb. Aşkar görünürdü ki, yığılıb qalmış problemlər müzakirə edilməyib”.

Digər tərəfdən, məqalədə qeyd edildiyi kimi, Prezident Vladimir Putin Yerevana səfərindən üç gün sonra Prezident İlham Əliyevlə görüşməyi zəruri hesab edib. Putin Əliyevi “Valday” Beynəlxalq Diskussiya Klubunun iclasına dəvət edib. Soçidə Yerevan görüşünün iştirakçılarından Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev də vardı.

Prezident İlham Əliyev “Valday” forumunda çıxışından əvvəl Prezident Vladimir Putin ilə görüşüb. Prezident Vladimir Putin deyib: “Şəxsi görüşlərimizdə, əlaqələrimizdə fasilə olmasına baxmayaraq ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edir. Ticari-iqtisadi əlaqələr möhkəmlənir, keçən il əmtəə dövriyyəsinin həcmi 2,5 milyard dollar olub”.

Qəzet “Valday” klubunun Soçidə keçirilən iclasının yekun plenar sessiyasında Prezident İlham Əliyevin bəyanatını bu görüşün mühüm hadisəsi hesab edir: “Çıxışını Qarabağ münaqişəsinin tənzimlənməsi mövzusuna həsr etmiş cənab Əliyev onu Nikol Paşinyan ilə sərt polemikaya çevirib. O, emosional çıxışında Paşinyanın “Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə” sözlərini şərh edərək onları “yalan” adlandırıb və deyib: “Qarabağ Azərbaycandır və nida işarəsi”.

# Daxili İşlər naziri əsgər və hərbi qulluqçularla görüşüb





Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Quba rayonunda yerləşən hərbi hissəsində olub.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qarşılanma mərasimindən sonra hərbi hissənin qərargahında "Şərəf kitabını" imzalayan nazir əsgərlərin və hərbi qulluqçuların kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu ilə maraqlanıb, həmçinin maddi-texniki təminatı, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq-quruculuq işləri ilə yaxından tanış olub.

Sonra sıra meydanında əsgər və hərbi qulluqçular qarşısında çıxış edən Daxili İşlər naziri V.Eyvazov yaxın tariximizə qısa nəzər salaraq müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı problemlər, torpaqlarımızın işğalı, Ulu Öndərin ali hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilmiş müsbət nəticələr barədə məlumat verib.

Azərbaycan Prezidenti İlham Əliyevin DİN-in və onun ayrılmaz hissəsi olan Daxili Qoşunların ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizənin səmərəli təşkilində, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, insan və vətəndaş hüquq və azadlıqlarının təminində müstəsna rolunu və fədakar xidmətini hər zaman yüksək qiymətləndirdiyini vurğulayan nazir daxili işlər orqanlarının zəruri avadanlıq və texnika ilə təchizatına böyük diqqət yetirildiyini, məhz belə ali diqqət və qayğı sayəsində bu gün Daxili İşlər Nazirliyi, onun öncül qurumlarından olan Daxili Qoşunların müasir tələblərə cavab verən texniki və xüsusi vasitələrlə təmin olunduğunu, şəxsi heyətin iş, eləcə də sosial-məişət şəraitinin ilbəil daha da yaxşılaşdığını bildirib.

Nazir qeyd edib ki, bu gün ölkəmizdə demokratik prinsiplər əsasında insan hüquqlarının təmin olunması, qorunub-saxlanılması istiqamətində mühüm işlər görülür. Vətəndaş məmnunluğunun yüksək səviyyədə təmin edilməsi məqsədilə ölkə rəhbərliyinin dövlət qurumları, o cümlədən Daxili İşlər Nazirliyi qarşısında qoyduğu konkret vəzifələrə uyğun olaraq müvafiq qərarlar verilir. Nazirliyin rəhbərliyi tərəfindən respublikanın şəhər və rayonlarında vətəndaşlar qəbul edilir, onların hər bir müraciəti üzrə lazımi tədbirlər görülür, qaldırılan məsələlərin əksəriyyəti yerindəcə həllini tapır.

Şəxsi heyətə tapşırıq və tövsiyələrini verən nazir Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının əməkdaşları, o cümlədən Daxili Qoşunların hərbi qulluqçuları göstərilən ali diqqət və qayğıya cavab olaraq sabitliyin, əmin-amanlığın etibarlı qorunmasına, cinayətkarlıqla qətiyyətli mübarizə işinə öz nümunəvi xidməti ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaq.

Sonda hərbi hissənin əsgər və hərbi qulluqçuları təntənəli marşın sədaları altında tribuna önündən keçiblər.

## *Rusiyanın ən nüfuzlu yazıçısı* *Aleksandr PROXANOV:*

# "Zal İlham Əliyevi alqışlayırdı"



*Əvvəli 1-ci səh.*

Yazıçı vurğulayıb ki, İlham Əliyevin çıxışı zamanı zalda Ermənistanın nümayəndələri, hər hansı radikallar olmayıb: "Zal İlham Əliyevi alqışlayırdı".

Aleksandr Proxanov bu yaxınlarda Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Nikol Paşinyanın "Qarabağ Ermənistandır" sözlərini pisləyən bəyanatı ilə bağlı sualı da cavablandırıb. O deyib: "Bizim Prezident bu yaxınlarda Ermənistanın lideri və artıq Soçidə Azərbaycan Prezidenti ilə də görüşlər keçirib. Rusiya getdikcə artan qeyri-sabitliyi tarazlaşdırmağa səy göstərir. Lavrovun sözlərinə gəldikdə isə, burada hər şey aydındır. Əlbəttə, Rusiya XİN-in rəhbəri Paşinyanın bəyanatını pisləməli idi".

# *Sergey MARKOV:* "Prezident İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət qazanıb"

Prezident İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət qazanıb. "Valday" Beynəlxalq Diskussiya Klubunun Soçidə keçirilmiş iclasında iştirak edən akademik və media birliklərinin nümayəndələri Dağlıq Qarabağ münaqişəsi barədə lazımınca məlumatlı deyildi. Səbəb odur ki, bu birliyin mövqeyi erməni diasporunun təsirinə məruz qalmış KİV tərəfindən yayılan informasiya əsasında formalaşır. Bu mənada, Azərbaycan Prezidenti mürəkkəb bir auditoriya qarşısında çıxış edirdi. Lakin Prezident İlham Əliyev öz zəngin təcrübəsi və böyük diplomatik istedadı sayəsində mövqeyini dəqiq və aydın şərh etməyə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması kontekstində Azərbaycanın maraqlarının və fəaliyyətinin məntiqini izah etməyə müvəffəq oldu. Hesab edirəm ki, onun çıxışı Beynəlxalq Diskussiya Klubunun iclasında ən güclü bəyanatlardan biri oldu.




AZƏRTAC xəbər verir ki, tanınmış rusiyalı politoloq, "Siyasi Araşdırmalar İnstitutu" qeyri-kommersiya tərəfdaşlığının baş direktoru Sergey Markov bu fikirləri oktyabrın 7-də "Sputnik Azərbaycan" multimedia mətbuat mərkəzində keçirilmiş mətbuat konfransında Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi "Valday" Beynəlxalq Diskussiya Klubunun növbəti iclasının yekunlarını təhlil edərkən söyləyib. Rusiyalı məşhur politoloq regionda və dünyada baş verən proseslərlə əlaqədar Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin gələcək inkişafı barədə fikirlərini də bölüşüb. Onun sözlərinə görə, ölkələr arasında münasibətlərdə "Bakı ab-havası" formalaşıb və "Valday" Beynəlxalq Diskussiya Klubunun Soçidə keçirilmiş iclasına Azərbaycan Prezidenti İlham Əliyevin dəvət edilməsi Moskva ilə Bakı arasında dostluq münasibətlərinin növbəti təzahürüdür.

# Azərbaycan dəniz nəqliyyatı sahəsində beynəlxalq əməkdaşlığı genişləndirir

Beynəlxalq Dəniz Təşkilatının London şəhərində yerləşən baş qərargahında "Beynəlxalq Dəniz Təşkilatının xoşməramlı dəniz səfirləri" üçün görüş keçirilib. Baş qərargahda, həmçinin "Dünya Dənizçilik Günü" də qeyd olunub.








Dənizçi peşəsinin təbliği və dənizçilik sahəsi haqqında məlumatın artırılması istiqamətində xoşməramlı dəniz səfirlərinin işini yüksək qiymətləndirən Beynəlxalq Dəniz Təşkilatının Baş katibi Kitak Lim, dəniz səfirlərinin ölkələrində həyata keçirdikləri tədbirləri müsbət qiymətləndirib.

Beynəlxalq Dəniz Təşkilatının xoşməramlı dəniz səfirlərinin və müxtəlif ölkələrin nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə xoşməramlı dəniz səfirlərinin dənizçilik sahəsinə verdiyi töhfələrdən bəhs edilməklə yanaşı, son dövrdə aktual məsələlərdən biri hesab olunan qadınların dənizçilik sahəsindəki rolu və tutduqları mövqe barədə ətraflı müzakirələr aparıldı. Görüşdə xoşməramlı dəniz səfirlərinin effektiv kommunikasiya planlarından, sosial təşəbbüslərindən, dəniz nəqliyyatı sahəsində təlimlərin keçirilməsindən söz açıldı. Beynəlxalq Dəniz Təşkilatının əsas fəaliyyətinin ətraflı əks etdirilməsi məqsədilə yol xəritəsinin formalaşdırılması üçün təlimat və mexanizmlərin işlənib hazırlanmasının zəruriliyi tədbir iştirakçılarının diqqətinə çatdırıldı.

Görüşdə bildirildi ki, Asiya, Sakit okean, Avropa və Afrika, Karib dənizi üzrə 4 region çərçivəsində və hər biri 10 nəfərdən ibarət olmaqla qruplara bölünmüş xoşməramlı dəniz səfirləri Beynəlxalq Dəniz Təşkilatının texniki əməkdaşlıq komitəsinin işi ilə əlaqədar birgə fəaliyyət göstərəcəklər.

Beynəlxalq Dəniz Təşkilatının xoşməramlı dəniz səfiri, Dövlət Dəniz Agentliyinin hüquq, kadr və beynəlxalq əlaqələr şöbəsinin müdiri Fərhad Məmmədov Azərbaycan Respublikasında dənizçilik sahəsində həyata keçirilən tədbirlər haqqında məlumat verərək bildirdi ki, gündəmdə olan əhəmiyyətli məsələlər, xüsusilə qüvvəyə minmiş yeni dəyişikliklər, eləcə də bu sahədə maraq doğuran sualların cavablandırılması və tövsiyələrin verilməsi məqsədilə tələbələr ilə görüşlər keçirilib. O, gənc kadrların dənizçilik sahəsində iş təcrübəsinin artırılması və onlar arasında bu sahəyə marağın təşviq edilməsi məqsədilə tələbələr üçün Dövlət Dəniz Agentliyində təcrübəkeçmə imkanlarının yaradıldığını qeyd etdi. Fərhad Məmmədovun sözlərinə görə, Beynəlxalq Qadınlar Günü münasibətilə dənizçilik sektorunda gender bərabərliyinin necə idarə olunması mövzusunda təlim keçirilib. Təlimdə dənizçilik sahəsində çalışan işçi və tələbələr iştirak edib. Təlim dənizçilik sektorunda bərabərlik və inklüzivlik, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərində gender bərabərliyi, bu sahədə maneələrin aradan qaldırılması və işçi qüvvəsi balansının qorunması üçün qadınlar arasında dənizçilik peşəsinin təbliğ edilməsi istiqamətində aparılan güclü müzakirələr çərçivəsində keçirilib.

Beynəlxalq Dəniz Təşkilatının baş qərargahında "Dənizçilik cəmiyyətində qadınların səlahiyyətləndirilməsi" mövzusuna həsr olunmuş "Dünya Dənizçilik Günü 2019" adlı tədbir də keçirilib. Xatırladaq ki, "Dünya Dənizçilik Günü" Birləşmiş Millətlər Təşkilatı tərəfindən rəsmən elan olunmaqla, dənizçilik sahəsində həyata keçirilən tədbirlərin və xüsusilə Beynəlxalq Dəniz Təşkilatının işinin əhəmiyyətini vurğulamaq məqsədilə hər il bir mövzuya həsr olunmaqla qeyd edilir.

Beynəlxalq Dəniz Təşkilatının Baş katibi Kitak Lim qeyd edib ki, üzv dövlətlərə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında kömək göstərilməsi Beynəlxalq Dəniz Təşkilatının əsas strateji istiqamətlərindən biridir. Qadınların dənizçilik sektorunda rolunu xüsusilə vurğulayan Kitak Lim hesab edir ki, göstərilən səylər dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün uzunmüddətli və davamlı olacaq.

Baş katib dənizçilik sahəsində qadınların güclənməsi və davamlı olaraq köhnəlmiş anlayışlarla mübarizə aparılmasından, müxtəlifliyin birgə əmək, liderlik və kommersiya fəaliyyətində əhəmiyyətli olmasından söz açıb. O bildirib ki, dənizçilik sahəsində gender bərabərliyini rəhbər tutmaqla Beynəlxalq Dənzi Təşkilatının dəstəyi ilə inkişafa nail olmaq üçün qadınların əməyindən bərabər şəkildə istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir.

Tədbirdə inkişaf etməkdə olan ölkələrdə dənizçilik sahəsində çalışan qadınlar üçün ixtisaslaşmış texniki təlimlərdən istifadənin asanlaşdırılması, qadınlar üçün dənizçilik sahəsində fəaliyyət göstərən qurumlarda və təlim mərkəzlərində iş imkanlarının təmin edilməsi məqsədilə münasib mühitin formalaşdırılması, eləcə də inkişaf etməkdə olan ölkələrdə dənizçilik sahəsində çalışan peşəkar qadınların dənizçilik assosiasiyalarının yaradılmasına kömək göstərilməsi diqqətə çatdırılıb.

Qeyd edək ki, əlverişli coğrafi mövqeyə malik olan müstəqil Azərbaycan son 16 ildə etibarlı nəqliyyat dəhlizinin yaradılması istiqamətində mühüm işlər görür. Dəniz nəqliyyatına böyük investisiyalar yatırmaqla infrastrukturunu möhkəmləndirən ölkəmiz regionda əlverişli logistik bağlantı yaradır. Xüsusən də dəniz nəqliyyatı sisteminin müasirləşdirilməsi Azərbaycanı Avrasiya məkanının ən mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevirib.

Dəniz nəqliyyatı sahəsi üzrə beynəlxalq konvensiyaların tələblərindən irəli gələn öhdəliklərin icra vəziyyətinin qiymətləndirilməsi məqsədilə Beynəlxalq Dəniz Təşkilatının Audit Ekspert Qrupu 2017-ci ildə Azərbaycanda səfərdə olub və yoxlama aparıb. Yoxlamanın nəticələrinə əsasən, respublikamız 174 dünya dəniz dövləti sırasında ən qabaqcıl Avropa dövlətlərini geridə qoyaraq statistika üzrə ön sırada yer tutub.

Azərbaycan bu gün Xəzər hövzəsində ən böyük ticarət donanmalarından birinə sahibdir. Hazırda 200-dən çox gəmi Xəzər sularında yük daşıyır. Ümumiyyətlə, dünya ticarət məhsullarının 80 faizdən çox hissəsinin təhlükəsiz, maddi cəhətdən sərfəli və ətraf mühitə daha az mənfi təsir göstərməklə daşınması məhz dəniz nəqliyyatı vasitəsilə həyata keçirilir. Dəniz nəqliyyatının inkişafı ilə əlaqədar bütün dünya dövlətləri tərəfindən qəbul olunan və riayət edilən, dənizçilik münasibətlərini tənzimləyən tələblərə və normalara daim ehtiyac duyulub. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə də etibarlı təminat verir.

Prezident İlham Əliyevin apardığı məqsədyönlü islahatlar nəticəsində dəniz nəqliyyatı yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülmüş işlər də xüsusi qeyd edilməlidir. Azərbaycanın dəniz nəqliyyatı sahəsində qazandığı nailiyyətlər ölkəmizə səfər edən müstəqil beynəlxalq qurumların ekspertləri tərəfindən də yüksək qiymətləndirilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# *Dmitri SAVELYEV:* "Dağıdılmış və təhqir edilmiş Dağlıq Qarabağ çiçəklənən Azərbaycan torpağına çevrilməlidir"

"Valday" Beynəlxalq Diskussiya Klubu Soçidə işini başa çatdırıb. Onun məqsədi Şərqdə baş verən siyasi və iqtisadi prosesləri müzakirə etmək olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı tədbirin ən əhəmiyyətli hadisələrindən birinə çevrilib. Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev respublikanın geosiyasi proseslərdə rolunu və onun Rusiya ilə münasibətlərinin səviyyəsini təhlil edir.



**- Dmitri İvanoviç, sizcə, dörd ölkənin liderləri arasında nə üçün məhz Prezident İlham Əliyev Klubun iclasına dəvət edilib?**

- "Şərqin şəfəqi" poetik obrazı heç də təsadüfən indiki "Valday" forumunun mövzusu seçilməyib. Son vaxtlar geosiyasi proseslər vektoru nəzərəçarpacaq dərəcədə Şərqə doğru istiqamət göstərməyə başlayıb. Qoca Avropanı istər daxili, istərsə də ABŞ-la münasibətlərdə ziddiyyətlərin parçaladığı bir vaxtda Asiya daha rasional və proqnozlaşdırılan əraziyə çevrilir: Şərqdəki tərəfdaşlarla həm daha səmərəli qarşılıqlı fəaliyyət göstərmək, həm də uzunmüddətli tərəfdaşlıq qurmaq olar. Bu nöqteyi-nəzərdən Rusiyanın xarici siyasətində Azərbaycanın rolu xeyli artır: Azərbaycan Respublikası dəfələrlə konkret addımlarla sübut edib ki, Rusiya qətiyyətlə ona arxalana bilər. Rusiyanın AŞ PA-ya qayıdışı məsələsində Azərbaycanın səs verməsi son örnəkdir. Odur ki, bu gün Avrasiya qitəsində münasibətlərin yeni formatını yaratmağın və Asiya dövlətləri ilə dialoq qurmağın vaxtı çatdığı üçün Azərbaycanla strateji tərəfdaşlıq Rusiya üçün son dərəcə əhəmiyyətlidir.

Coğrafi mövqeyinə görə Şərqlə Qərb arasında yerləşən Azərbaycan üçün sanki tarixin özü tərəfindən böyük missiya hazırlanıb. Respublika inamla dünya siyasətində lider mövqelərə doğru hərəkət edir ki, bu da Azərbaycan iqtisadiyyatının istər intensiv inkişafı, istərsə də ölkədə ictimai-siyasi vəziyyətin sabit olması ilə şərtlənir. Xarici siyasət sahəsində münasibətlərini düzgün qurması sayəsində Azərbaycan qarşılıqlı fəaliyyətin müxtəlif formatlarının tamdəyərli iştirakçısına, ən vacib problemlərə dair forumların keçirildiyi beynəlxalq mərkəzə çevrilib. Odur ki, əksinə, Azərbaycan Prezidentinin bu cür formatlı və belə gündəliyi olan tədbirə dəvət edilməməsi qəribə olardı.

**- Prezident İlham Əliyevin çıxışının əsas hissəsi Dağlıq Qarabağ probleminə həsr olunub. Bu sahədə hadisələrin inkişafını və münaqişənin nizamlanmasında Rusiyanın rolunu necə qiymətləndirirsiniz?**

- Rusiyanın mövqeyi prinsipial və dəyişməz qalır: problemin həlli sırf sülh xarakteri daşımalıdır. Rusiya bu münaqişənin həllində inkişafa nail olmaq üçün bütün zəruri səyləri göstərməyə hazırdır. Üstəlik, şəxsən mən dərindən əminəm ki, Ermənistan Azərbaycan ərazisini qeyd-şərtsiz azad etməyə borcludur. Dağıdılmış və təhqir edilmiş Dağlıq Qarabağ işğaldan azad edilmiş, çiçəklənən Azərbaycan torpağına çevrilməlidir. Görün, 2016-cı ildə azad edilmiş ərazidə nə qədər işlər görülüb! Bu, onu göstərir ki, münaqişə beynəlxalq hüquqa müvafiq surətdə həll ediləndən sonra Dağlıq Qarabağı necə bir inkişaf gözləyir. Şübhəsiz ki, rusiyalılar Dağlıq Qarabağ ətrafındakı vəziyyətə laqeyd qala bilməzlər, çünki ölkəmiz ATƏT-in Minsk qrupunun həmsədridir. Rusiya sərhədlərindəki münaqişənin eskalasiyasının Cənubu Qafqazda sabitliyə daim təhlükə yaratması Rusiyaya əsla lazım deyil.

Bu baxımdan Rusiyanın mövqeyi BMT Təhlükəsizlik Şurasının (TŞ) yanaşmalarından köklü surətdə fərqlənir. Nə qədər qəribə səslənsə də, TŞ öz qərarlarının necə icra olunacağına etinasız yanaşır. Təsadüfi deyil ki, Azərbaycan da, Türkiyə də son vaxtlar BMT-nin işinin yetərincə səmərəli olmaması və bu qurumun yenidən təşkil edilməsinin zəruriliyi barədə məsələ qaldırırlar. İkili standartlar yolverilməzdir! Əgər qərarlar qəbul edilibsə, onlar həyata keçirilməlidir, onların icrası isə dünya birliyinin nəzarətində olmalıdır.

Qeyd etmək istəyirəm ki, hazırda danışıqlar prosesi mahiyyət etibarilə Ermənistan tərəfindən bloklanıb. Yerevan sülhyaratma prosesini açıq-aşkar ləngidir. Bunu həm ölkə rəhbərliyinin təxribat xarakterli bəyanatları, həm də erməni siyasətçilərinin anlaşılmaz kursu göstərir. Elə təəssürat yaranır ki, onların Qarabağ məsələsinə dair heç bir dəqiq strategiyası yoxdur, əks halda, Ermənistanın hətta özünə ziyan vurmaq, perspektivli iqtisadi layihələrdən kənarda qalmaq hesabına danışıqları çıxılmaz vəziyyətə salmaq inadı nə ilə izah oluna bilər. Artıq hamıya aydındır ki, problemi həll etmək lazımdır. Münaqişə daima durğunluq vəziyyətində qala bilməz.

**- Rusiya ilə Azərbaycanın iri iqtisadi layihələrdə, o cümlədən ikitərəfli layihələrdə iştirakını necə qiymətləndirirsiniz?**

- Artıq uzun müddətdir ki, iqtisadi əlaqələrimiz müsbət dinamika nümayiş etdirir. Əmtəə dövriyyəsinin hər il 20-25 faiz artması bu sahədə tərəqqinin ən yaxşı göstəricisidir. Düşünürəm ki, işlərin belə gedişi daha çox onunla bağlıdır ki, Rusiya-Azərbaycan tərəfdaşlığı strateji əhəmiyyətli prioritetlər üzərində qurulur. Əbəs yerə əməkdaşlığın müxtəlif aspektlərini əhatə edən beş "yol xəritəsi" işlənib hazırlanmayıb. Ölkələrimiz onlarda az inkişaf etmiş sahələrdə bir-birini tamamlayırlar. Budur, lap göz qabağında olan nümunə: Rusiyanın Azərbaycanda müasir atom elektrik stansiyası (AES) tikmək haqqında təklifi. Ölkəmiz nüvə enerjisindən istifadə sahəsində dünya liderlərindən biridir və öz texnologiyalarını bölüşməyə hazırdır. Əgər biz Türkiyədə "Akkuyu" AES inşa ediriksə, onda nə üçün Azərbaycandan olan tərəfdaşlarımız şəxsi atom enerjisi generasiyasına sahib olmasınlar. Nəzərə almaq lazımdır ki, Nəvai qəsəbəsində sahə hələ 1981-ci ildə Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə seçilib. O vaxtlar SSRİ-də tikinti məsələləri onun kuratorluğunda idi. Azərbaycanın elektrik enerjisinin generasiya olunmasına çox ehtiyacı var. Belə ki, təkcə ötən il respublikada enerji istehlakı 14 faiz artıb. Ölkə atom enerjisi ilə, öz qaz resurslarını qoruyub saxlamaq hesabına təqribən 800 milyon dollara qənaət edə bilərdi. Rusiya özünün ən fəal yardımını təklif etməyə hazırdır.

Əgər qlobal layihələrdən danışılsa, onda Azərbaycan artıq indinin özündə Şərqlə Qərb arasında nəqliyyat və enerji körpüsü rolu oynayaraq qitənin geosiyasi landşaftına və enerji təhlükəsizliyinə təsir göstərir. Bunu demək kifayətdir ki, Azərbaycan eyni vaxtda "Şərq-Qərb" və "Şimal-Cənub" layihələrində iştirak edən yeganə ölkədir. Rusiya "Şimal-Cənub nəqliyyat dəhlizi"nin reallaşmasına daha çox cəlb olunub, lakin Rusiyadan yüklər, həmçinin Azərbaycandan və Qərb istiqamətində gedir, çünki tarif siyasətinin razılaşdırılması məsələləri həll olunub və möhtəşəm nəqliyyat infrastrukturu yaradılıb. Xəzər Konvensiyasının imzalanmasından sonra Xəzərin mənimsənilməsində qarşılıqlı fəaliyyətin güclənməsi də bura əlavə olunsa, onda ölkələrimizin Avrasiya məkanında etimad və əməkdaşlıq atmosferinin yaradılmasına nə qədər güc və siyasi iradə sərf etdikləri aydın görünər.

Aida İmanquliyeva - 80

# Əbədiyaşar insan

Əvvəli 1-ci səh.



1962-ci ildə universiteti bitirəndən sonra bu ali təhsil müəssisəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olmuş, həmçinin keçmiş SSRİ EA Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil almışdır. Professor Aida İmanquliyeva Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna rəhbərlik edən ilk qadın, Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin üzvü, eyni zamanda SSRİ-də Şərq ədəbiyyatının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü, Azərbaycanda və keçmiş Sovet İttifaqında yeni ərəb ədəbiyyatı üzrə əsas kursun yaradıcısı idi. 1966-cı ildə namizədlik dissertasiyasını uğurla müdafiə edən Aida İmanquliyeva Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi kimi çalışmağa başlamış və 1973-cü ildə baş elmi işçi vəzifəsinə yüksəlmişdir. 1976-cı ildə Şərqşünaslıq İnstitunun Ərəb filologiyası şöbəsinin müdiri, 1988-ci ildə elmi işlər üzrə direktor müavini, 1991-ci ildən ömrünün sonuna qədər isə Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsində çalışmışdır.

Professor Aida İmanquliyeva üç fundamental monoqrafiyanın ("Mixail Nüaymə və "Qələmlər cəmiyyəti", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatının korifeyləri") və 70-dən çox elmi məqalənin, eləcə də bir çox tərcümələrin müəllifidir. Rəhbəri olduğu Ərəb filologiyası şöbəsində qısa müddətdə 10-dan çox namizədlik dissertasiyası müdafiə edilmişdir. Professor Aida İmanquliyeva öz istedadı və zəhməti sayəsində yeni ərəb ədəbiyyatının ən tanınmış mütəxəssislərindən birinə çevrilərək yaxın və uzaq xaricin bir çox ölkələrində Azərbaycanın şərqşünaslığını layiqincə təmsil etmişdir. Aida xanım zəngin elmi irsi ilə təkcə Azərbaycan şərqşünaslığına deyil, həm də bütün dünya şərqşünaslığına böyük töhfə vermişdir. Rusiya, Ukrayna, Almaniya, İngiltərə, Fransa, Özbəkistan, Gürcüstan və bir çox ərəb ölkələrində tanınan professor Aida İmanquliyeva bu gün də şərqşünaslıq tarixinin ən nüfuzlu simalarından biri hesab olunur.

## Klassik irs tədqiqatları

Professor Aida İmanquliyeva Azərbaycanda yeni ərəb ədəbiyyatının araşdırılması üçün tamamilə yeni məktəb yaratmışdır. O, eyni zamanda çoxşaxəli tədqiqat istiqamətləri üzrə fəaliyyət göstərmişdir. Bura ərəb dilindən tərcümələr, klassik ərəb ədəbiyyatına dair sanballı məqalələr, rəylər və mühazirələr daxildir. Bütün bu intellektual məhsullar, həmçinin Azərbaycan elm tarixinin mühüm mərhələsini təşkil edir. Aida İmanquliyeva bütün tədqiqatlarında Şərq-Qərb dialoqunun vacibliyinə və qədim dövrlərdən bəri mövcud olmuş reallığa diqqət çəkirdi: *"Ərəblərin mənimsədikləri antik, qədim Şərq və ərəb-müsəlman ənənələri Əndəlus vasitəsilə Avropaya yayılırdı"*.

Aida xanım ərəb-müsəlman sivilizasiyasının İspaniya üzərindən Qərbə təsiri haqqında çox ciddi elmi mülahizələrini belə təqdim edir: *"Əndəlus ədəbiyyatı Orta əsr ərəb ədəbiyyatı tarixində görkəmli yerlərdən birini tutur. Əndəluslu alim və ədiblərin nəcib fəaliyyəti sayəsində Qərb dünyası Şərqin mədəniyyəti, ədəbiyyatı, adət və ənənələri ilə tanış oldu. Qərblə Şərq arasında mədəni-ədəbi əlaqə yarandı. Məhz bu alimlərin tərcüməçilik səyi nəticəsində Avropa qədim yunan dünyasının tibbə, riyaziyyata, həndəsəyə aid ən məşhur əsərləri ilə tanış oldu"*. Məhz VIII əsrin əvvəllərində ərəblərin İspaniyada məskən salıb tarixdə ilk dəfə Qərb ölkəsində öz ədəbiyyat və mədəniyyətini yaratması ərəb ədəbiyyatında mühüm hadisə oldu. VIII əsrdən başlayaraq İspaniya uzun müddət ərəb ədəbiyyatı və mədəniyyətinin Qərbdəki mərkəzinə çevrildi. Aida xanım çox dəqiqliklə və ciddi mənbələrə əsaslanaraq, ümumiyyətlə, İspaniyada mövcud olmuş islam sivilizasiyasının incəsənət üzərindən Qərbə təsirini belə qiymətləndirir: *"XI əsr Fransa incəsənətinin tədqiqi ilə məşğul olan alimlər etiraf edirlər ki, bu incəsənətdə müəyyən dərəcədə islam İspaniyasının təsiri duyulur"*.

## Məhcər ədəbiyyatı

Professor Aida İmanquliyeva ərəb məhcər (mühacirət) ədəbiyyatının araşdırılması məsələsinə çox diqqətlə yanaşaraq dünya şərqşünaslığına özünün elmi möhürünü vurmuşdur. Aida xanımın 1970-ci illərdə apardığı tədqiqatlar həm Şərq, həm də Qərb ədəbiyyatında dərin iz buraxmış ərəb məhcər ədəbiyyatının nümayəndələri barəsində idi. Şimali Amerikada yaranmış mühacirət ədəbiyyatı, xüsusən XIX əsrin axırları-XX əsrin əvvəllərində ərəb ədəbiyyatı tarixində xüsusi çəkiyə və mövqeyə malik ədəbi məktəb olmuşdur. Aida xanım "Yeni ərəb ədəbiyyatının korifeyləri" monoqrafiyasında "Suriya-Amerika məktəbi"nin nümayəndələri Cübran Xəlil Cübran, Əmin ər-Reyhani və Mixail Nüaymənin yaradıcılığını Qərb romantizmi və rus tənqidi realizminin təsiri altında tədqiq edirdi. Bu, eyni zamanda yeni ərəb ədəbiyyatı ilə dünya ədəbiyyatının müxtəlif cərəyanlarının və bədii metodlarının qarşılıqlı əlaqəsi tarixinin tədqiqidir. Bu yazıçıların yaradıcı fəaliyyətinin əhəmiyyəti ondadır ki, onlar Avropa və Amerika ədəbiyyatının etik və bədii dəyərlərini yenilik ruhunda əxz etmiş, yeni formada ifadə etmiş, onların nailiyyətlərini ən yaxşı milli ənənələrlə sintezdə təcəssüm etdirmişlər.

Ərəb məhcər ədəbiyyatının nümayəndələri öz fəaliyyətlərini genişləndirmək məqsədilə 1920-ci ildə Nyu Yorkda "Qələmlər cəmiyyəti" ("ər-Rabitə əl-Qələmiyyə") adlı ədəbi təşkilat yaratdılar. Təşkilata istedadlı və ictimai baxımdan fəal mühacir yazıçılar daxil oldular. Cəmiyyətin sədri Cübran Xəlil Cübran, katibi isə Mixail Nüaymə seçildi. "Qələmlər cəmiyyəti" yeni ərəb ədəbiyyatının ideya və prinsiplərinin formalaşdığı ictimai-mədəni mərkəz oldu.

Mühacir yazıçıların yaradıcılığı sayəsində ərəb ədəbiyyatında yeni janr - mənsur şeir janrı meydana çıxdı, ərəb ədəbiyyatının özü isə digər dünya ədəbiyyatları cərgəsində öz layiqli yerini tutdu. Bu yazıçılar üçün, bir tərəfdən, dərin vətənpərvərlik, vətəni azad və güclü görmək istəyi, digər tərəfdən isə, bütün insanlara, dünyada olan bütün canlılara münasibətdə sevgi hissi səciyyəvi idi. Və bu cərəyanın tanınmış nümayəndələri Cübran Xəlil Cüban, Əmin ər-Reyhani və Mixail Nüaymə nəzəri dərinliyi və konseptualizmi ilə tanınan, Avropa və Amerika ədəbiyyatının nailiyyətlərini mənimsəmiş istedadlı ərəb ədibləri olaraq əsərlərində multikultural və milli bədii ənənələri sintez edərək Şərq ruhunu Qərb analitikası ilə uğurla birləşdirdilər. Bu kontekstdə professor Aida İmanquliyevanın kateqorik olaraq milli və ümumbəşəri ədəbiyyatların qarşılıqlı əlaqəsinə dair fikirləri son dərəcə əhəmiyyətlidir: *"Dünyanın müxtəlif bölgələri arasında qarşılıqlı əlaqələr sayəsində hər bir milli ədəbiyyatın nailiyyəti başqa, hətta məkan etibarı ilə uzaq ədəbiyyatların da nailiyyətinə çevrilir... İstənilən xalqın mədəniyyəti xaraktercə milli olub, ümumbəşəri nailiyyətlərlə qırılmaz surətdə bağlıdır"*.

Ərəb məhcər ədəbiyyatı nümayəndələrinin yaradıcılığında eyni vaxtda üç ənənə - ingilis "Göl məktəbi", Amerika transsendentalizmi və rus ədəbiyyatının tənqidi realizmi meydana çıxır. Burada bir sıra qarşılıqlı əlaqəli problemlər - "Suriya-Amerika məktəbi"nin təcrübəsində Qərb və Şərq ənənələrinin sintezi problemi, bu məktəbin nümayəndələri tərəfindən Qərbi Avropa və Amerika romantizminin, rus tənqidi realizminin mənimsənilməsinin özünəməxsus xüsusiyyətləri problemi və onların əsərlərində yaradıcı metodun təkamülü problemi büruzə verir. Məhz bu kontekstdə professor Aida İmanquliyeva Cübran, Nüaymə və ər-Reyhaninin yaradıcılığını umumiləşdirilmiş aspektdən son dərəcə dəqiq şəkildə belə səciyyələndirir: *"Onlara əzəldən Şərq xalqlarının mədəniyyətinə xas olan ümumbəşəri və humanist ideallar əsasında öz doğma mədəniyyətlərində bu dəyərlərin təsdiqi üçün müvafiq üsullar tapmaq asan idi. Eyni zamanda heç vaxt unutmaq lazım deyil ki, bu yazıçıları öz vətəninin adət-ənənələrini və öz dilini qoruyub saxlayan mühacirlər mühiti əhatə edirdi. Buna görə də onlar iki mədəni ənənənin - həm Şərqin, həm də Qərbin mədəni əlaqələrinin daşıyıcıları oldular"*.

Aida İmanquliyeva ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən görkəmli, ən sanballı tədqiqatçısı idi. Bunu nəinki Azərbaycan və keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları etiraf edirlər.

## Şərqlə Qərbin inteqrasiyası

Aida xanım tədqiqatlarında ərəb mühacir yazıçılarının fəlsəfi baxışlarını araşdırır. O, belə bir elmi nəticəyə gəlir ki, Cübran və ər-Reyhaninin "kamil insan" haqqında təsəvvürləri Orta əsr mütəfəkkir və sufiləri İbn Ərəbi, Cili və Caminin təlimlərinə söykənir. Xüsusilə təsəvvüf Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi düşüncəsinə, eyni zamanda bütövlükdə dünya mədəniyyətinə böyük təsir göstərmişdir. Belə faktların mühacir ədiblərin əsərlərində təzühürü irəliyə doğru addım olmuşdur. Professor Aida İmanquliyeva bu istiqamətlərdə əvvəllər tədqiqatçıların diqqət yetirmədiyi cəhətlərə də toxunur.

Aida xanım Şərq-Qərbin əlaqələrinə, qarşılıqlı inteqrasiya məsələlərinə çox ciddi elmi mülahizələrlə belə qiymət verir: *"Qərb və Şərq bir-birini yalnız bərabərhüquqlu qarşılıqlı əlaqə və qarşılıqlı hörmət şəraitində zənginləşdirə bilərlər, mənəviyyatın həqiqi hərəkətverici qüvvəsi olan, mürəkkəb fəlsəfi ideyaları anlaşıqlı dildə geniş oxucu kütləsinə çatdıra bilən ədəbiyyat isə sivilizasiyalararası dialoqda ən yaxşı vasitəçilərdən biridir... O dövrün ingilis dilli ərəb mühacirət nəşrləri Qərb oxucusunu ərəb Şərqi ilə tanış edirdi. Bu, Qərblə Şərq arasında mədəni əlaqələrin inkişafı üçün olduqca zəruri idi. Ər-Reyhani, C.X. Cübran, M. Nüaymənin adları həm Amerikada, həm də ərəb Şərqində məşhur idi"*.

Şərq və Qərb ədəbiyyatlarının çoxaspektli və böyük zəhmət tələb edən qarşılıqlı əlaqələri mövzusu Aida İmanquliyevanın mühüm nəticələr əldə etdiyi elmi axtarışlarının özəyidir. Alim ərəb-müsəlman dünyasının Qərblə ədəbi əlaqələrinin Orta əsrlərdən başladığını söyləyir. Pireney (İberiya) yarımadasında Qərbi Avropa ilə Şərq arasında (VIII-XV əsrlər) ərəb ədəbiyyatının xüsusi rolunu göstərir. XVIII əsrdən başlayaraq Qərb ədəbiyyatında Şərq heyranlığı Şərq motivlərinin inkişafı ilə əlaqədar olaraq qarşılıqlı əlaqə prosesində daha da intensivləşir. Beləliklə, o, Avropa yazıçılarının (P.Kornel, Molyer, J.Rasin, F.Ryukkert, B.Cons, O.Qoldsmit), Qərb şair-romantiklərinin, "Göl məktəbi" şairlərinin və bir çox başqalarının yaradıcılığında Şərq süjetləri, mövzuları və motivlərini yada salır.

"Şərq və Qərb ən gözəl mədəniyyətləri ilə görüşməli və birləşməlidir" deyən Əmin ər-Reyhani ingilis dilində qələmə aldığı məşhur "My East and West" ("Mənim Şərqim və Qərbim") əsərində yazırdı: *"Şərqdə və Qərbdə mütəfəkkirlər qohumdurlar, şairlər iki qardaşın oğullarıdırlar, təxəyyülün novatorları dünyada sülh və xoş məramın müjdəçiləridirlər. Onların əsərləri millətlər arasında geniş yollar açır və onlar həmişəyaşar bələdçi və qoruyucudurlar"*.

Professor Aida İmanquliyeva bu səpkili elmi araşdırmaları nəticəsində bir neçə onilliklər boyunca öz dövrünü qabaqlayaraq Şərqlə Qərbin ümumbəşəri dəyərlər müstəvisində əməkdaşlığın mümkün olduğunu göstərmişdir. Müasir dövrdə həm nəzəri, həm də praktiki baxımdan ədəbiyyat vasitəsilə multikultural mühit və inteqrasiyanın formalaşması Aida xanımın tədqiqatlarının aktuallığını bir daha ortaya qoyur. Onun elmi yaradıcılığını tədqiq edərkən bu tendensiyanı yaxından görmək mümkündür.

Müasir dünyada elm tarixinə öz möhürlərini vurmuş alim-mütəfəkkirlərin xatirələrini daim uca tutmaq üçün elmi qiraət-seminarlar həyata keçirilir. Yaxşı olardı ki, Azərbaycanda da humanitar sahənin bütün istiqamətlərini əhatə edəcək belə bir qiraət-seminar Şərqlə Qərbi ciddi tədqiqatları ilə araşdırmış professor Aida İmanquliyeva adına başladılsın.

***Aytən QƏHRƏMAN,***
***filologiya elmləri doktoru***

# Azərbaycan tarixçiləri Bolqarıstanda beynəlxalq konfransda iştirak ediblər



Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudovun rəhbərlik etdiyi nümayəndə heyəti Bolqarıstanın Yambol şəhərində keçirilən "Son Antik dövrdə Cənub-Şərqi Avropada xristianlıq" mövzusunda beynəlxalq konfransda iştirak edib.

Tarix İnstitutundan AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinin tərkibinə elmi müəssisənin əməkdaşları - "Azərbaycanın qədim tarixi" şöbəsinin müdiri Allahverdi Əlimirzəyev və böyük elmi işçi Ramin Əlizadə daxil olublar.

Tarixçi alimlərimizin bu konfransda iştirakı erməni millətçilərinin və Qriqoriyan kilsəsinin nümayəndələrinin fəallaşması ilə əlaqədardır. Onlar iddia edirlər ki, guya Bakı da onların şəhəri olub və "Albanopol" adlanıb. Bununla əlaqədar olaraq, Azərbaycanın Bolqarıstandakı səfiri Nərgiz Qurbanova AMEA-nın prezidenti, akademik Akif Əlizadədən ölkəmizdən olan nümayəndələrin bu konfransa göndərilməsini və Azərbaycan-Alban kilsəsinin tarixi barədə ilk mənbələrlə konfrans iştirakçılarının məlumatlandırılmasını xahiş edib. Akif Əlizadə Yaqub Mahmudovun bu sahənin mütəxəssisləri ilə bərabər Yambol şəhərinə ezam olunmaları barədə sərəncam verib.

Aqatapolis yepiskopu Yeroteyin xeyir-duası ilə öz işinə başlayan konfransda Bolqarıstan alimləri ilə yanaşı, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Türkiyə, Serbiya, Rumıniya, Xorvatiya, Ukrayna və digər ölkələrdən olan tədqiqatçılar da iştirak ediblər.

Konfransın açılışında Yambol şəhərinin meri və bələdiyyə başçısının çıxışlarından sonra söz Yaqub Mahmudova verilib. O, konfrans iştirakçılarını xarici qonaqlar adından salamlayaraq bildirib ki, Azərbaycanda multikultural dəyərlərə böyük önəm verilir: "Azərbaycan-Alban kilsəsi bütün Qafqazın ilk xristian kilsəsidir. Hazırda Azərbaycanda müxtəlif dinlərin nümayəndələri sərbəst şəkildə ibadət edir və onların hüquqları konstitusiya ilə qorunur".

Yaqub Mahmudov çıxışında qeyd edib ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir çox ölkələrin ali dini orden və medalları ilə təltif olunublar. Akademikin çıxışı konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb və yepiskop Yerotey ona minnətdarlıq edib.

Tədbirdə Yaqub Mahmudov "Qədim Alban kilsəsi və onun faciəli tarixi" mövzusunda geniş məruzə ilə də çıxış edib. O bildirib ki, Alban kilsəsinin faciəli tarixi onun 1836-cı ildə çar Rusiyası tərəfindən ləğv edilməsi və erməni-qriqoriyan kilsəsinin təcavüzkar fəaliyyəti ilə bağlı olub: "Erməni-qriqoriyan kilsəsi Alban kilsəsinin tarixini saxtalaşdırmış, kitabxanalarını məhv etmiş, diofizit albanların qriqoriyanlaşdırılması və erməniləşdirilməsi siyasətini yeritmişdir. Daha sonra qədim albanların yaşadıqları bütün torpaqlarla bağlı Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürülüb. Və bununla əslində müasir dövrdə Cənubi Qafqazda sülh və əmin-amanlıq üçün ciddi təhlükə olan Dağlıq Qarabağ münaqişəsinin əsası qoyulub".

Akademikin məruzəsi zamanı konfrans iştirakçılarına tarixi sənədlər, ermənilər tərəfindən dağıdılmış dini abidələrimizin, məscidlərimizin tövləyə çevrilməsini, qədim Azərbaycan şəhəri olan İrəvanda erməni vandalları tərəfindən dağıdılmış məscidləri özündə əks etdirən videoçarx nümayiş etdirilib.

Sonda onun məruzəsi, Allahverdi Əlimirzəyev və Ramin Əlizadənin ilk mənbələr əsasında hazırladıqları "Azərbaycanda xristianlığın erkən tarixi (I-VII əsrlər)" adlı məqalə çoxaldılaraq konfrans iştirakçılarına paylanılıb. Tarix İnstitutunun Alban kilsəsinin tarixini və Azərbaycanın dini abidələrinə qarşı erməni vandallarının törətdiyi vəhşilikləri özündə əks etdirən nəşrləri də tədbirdəki alimlərə təqdim olunub.

Beynəlxalq konfransda Azərbaycan nümayəndə heyətinin uğurlu iştirakının təmin olunması üçün ölkəmizin Bolqarıstandakı səfiri Nərgiz Qurbanova lazımi dəstək göstərib.

# Təhsil Nazirliyində kollegiya iclası keçirilib



Oktyabrın 7-də Təhsil Nazirliyində kollegiya iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Təhsil naziri Ceyhun Bayramov kollegiya iclasını giriş sözü ilə açaraq təhsil sahəsində aparılan islahatlar nəticəsində əldə olunan uğurlar və qarşıya qoyulan vəzifələr barədə məlumat verib.

Kollegiya iclasında Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Yaqub Piriyev 2019-2020-ci tədris ili üzrə ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun nəticələri barədə məruzə edib.

Yaqub Piriyev bildirib ki, cari ildə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə tələbə qəbulu proqnozu ötən ilə nisbətən ümumilikdə 6 faiz, dövlət sifarişi ilə qəbul planı isə ötən illə müqayisədə 66,1 faiz artıb (dövlət sifarişi 8150 yer artaraq 20474 yer olub). Tələbə qəbulunda proqnoz yerlərinin 84,6 faizi dövlət, 15,4 faizi isə qeyri-dövlət ali təhsil müəssisələrinin qəbul planında nəzərdə tutulub. Ötən il bu nisbət müvafiq olaraq 85,4 faiz və 14,6 faiz olub.

Aparat rəhbəri müavininin sözlərinə görə, 2019-2020-ci tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının ilkin nəticələrinin statistik təhlili göstərir ki, son 6 ildə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul üzrə proqnoz yerlərinin sayı 28 faiz, dövlət sifarişli yerlərin sayı isə 78,5 faiz artıb. 2014-2015-ci tədris ilində dövlət sifarişli yerlərin sayı qəbul planının 30,4 faizini təşkil etdiyi halda cari ildə bu rəqəm 42,4 faizdir.

Cari ildə orta ixtisas təhsili müəssisələrinə tələbə qəbuluna toxunan Yaqub Piriyev əlavə edib ki, qəbul planı ötən ilə nisbətən ümumilikdə 8,2 faiz artıb. 56 orta ixtisas təhsili müəssisəsindən Təhsil Nazirliyinin tabeliyində olan 37 kollecə cari ildə tələbə qəbulu göstəricisi ötən illə müqayisədə 6,6 faiz çox olub. Ölkə üzrə dövlət hesabına qəbul planı isə ötən ilə nisbətən 4,6 faiz artıb.

İclasda Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov "Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Nazirlər Kabinetinin 2019-cu il 3 oktyabr tarixli 428 nömrəli Qərarına dair məruzə ilə çıxış edib. Rauf Orucov bildirib ki, qərara əsasən dövlət sifarişi əsasında kadr hazırlığı üzrə hər bir təhsilalana düşən təhsil xərclərinin miqdarı 2019-cu il sentyabrın 1-dən orta hesabla 30 faiz artırılıb. Şöbə müdiri qeyd edib ki, bu məqsədlə dövlət büdcəsindən ayrılacaq əlavə vəsaitin məbləği cari ildə 14 milyon, növbəti ildə isə 42 milyon manat təşkil edir.

Rauf Orucovun sözlərinə görə, bununla da dövlət sifarişi əsasında kadr hazırlığını həyata keçirən müəssisələrin maliyyə imkanlarının yaxşılaşması, işçilərin əməkhaqlarının artırılması, dövlət sifarişi əsasında kadr hazırlığı üzrə ali təhsil müəssisələri arasında rəqabət mühitinin güclənməsi və ali təhsil müəssisələrinin inkişafı üçün imkanların artması gözlənilən nəticələr sırasındadır.

Təhsil naziri Ceyhun Bayramov kollegiya iclasında çıxış edərək məruzə olunan mövzularla bağlı fikirlərini bildirib.

Kollegiya iclasında gündəlikdəki məsələlərə dair təklif və tövsiyələr səsləndirilib, müzakirələr aparılıb.

# Azərbaycanın Xarici İşlər Nazirliyində görüş

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Qazaxıstan Respublikasının ölkəmizdə yeni təyin olunan səfiri Serjan Abdıkarimov ilə görüşüb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Serjan Abdıkarimovu səfir təyin olunması münasibətilə təbrik edib və qardaş Qazaxıstan səfirinə diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə tərəflər ölkələrimiz arasında mövcud olan sıx münasibətlərin siyasi, mədəni və digər sahələrdə inkişafından məmnunluq ifadə ediblər. Eyni zamanda ölkələr arasında iqtisadi və ticarət sahələrinin daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Səfir Serjan Abdıkarimov Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik inkişaf strategiyası sayəsində Azərbaycanın regionda mühüm rol oynadığını və bu xüsusda, ölkəmiz tərəfindən həyata keçirilən enerji, nəqliyyat və infrastruktur layihələrin əhəmiyyətini qeyd edib. O, iki ölkənin birgə həyata keçirdiyi layihələrin uğurundan bəhs edərək bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyini bildirib. Nazir Elmar Məmmədyarov Qazaxıstan tərəfinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair beynəlxalq təşkilatlarda nümayiş etdirdiyi prinsipial mövqeyə, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə verdiyi daimi dəstəyə görə təşəkkürünü ifadə edib.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Səfir Serjan Abdıkarimov etimadnaməsinin surətini nazir Elmar Məmmədyarova təqdim edib.

# Raket və artilleriya bölmələri döyüş atışları icra edib





Azərbaycan Respublikası Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq, Raket və Artilleriya Qoşunlarının cəbhəboyu zonada yerləşən bölmələri iriçaplı yaylım atəşli reaktiv sistemlərdən (YARS) praktiki atışlar icra ediblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, eyni zamanda səhra şəraitində müvafiq bölmələrin zabitləri ilə "Taktiki təlimlərin hazırlanması və keçirilməsi qaydaları" mövzusunda toplanış keçirilib.

Raket bölmələri şərti düşmənin müdafiəsinin dərinliyində yerləşən hədəflərə zərbələr endirməklə qarşıya qoyulan məqsədlərə nail olublar.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilib





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyasının fəaliyyəti barədə müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq deyib ki, dövlət sirri təşkil edən məlumatların məxfiliyinin qorunması bu gün qarşıda duran əsas vəzifələrdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 17 sentyabr tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın yaradılması da bu sahədə fəaliyyətin gücləndirilməsi və qarşıya qoyulan vəzifələrin icrasına xidmət edir. Komissiyanın tərkibini diqqətə çatdıran Ali Məclisin Sədri bildirib ki, dövlət sirrinin mühafizəsi sahəsində aid təşkilatların birgə fəaliyyəti bundan sonra əsas vəzifə kimi müəyyənləşdirilir.

Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Nurlan Pənahov muxtar respublikada dövlət sirrinin mühafizəsi sahəsində görülən işlər, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini - Qanunçuluq və hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov isə dövlət sirrinin mühafizəsi üzrə fəaliyyəti tənzimləyən qanunvericilik barədə məlumat veriblər.

Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar naziri Rövşən Məmmədov dövlət orqanları arasında elektron sənəd dövriyyəsinin təşkili və təhlükəsizliyin təmin olunması sahəsində görülən işləri diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: "Təhlükəsizliyin təmin edilməsi hər bir dövlətin mövcudluğunun əsas şərtlərindəndir. Dövlətin təhlükəsizliyinin əsasında isə dövlət sirri təşkil edən məlumatların mühafizəsi, məxfiləşdirilməsi və qanunauyğun istifadəsi dayanır. Dövlət sirri - hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması dövlətin təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın yaradılmasında əsas məqsəd də dövlət sirri haqqında qanunvericiliyin muxtar respublikada həyata keçirilməsini təmin etməkdən, bu sahədə normativ hüquqi aktların və metodik sənədlərin işlənib hazırlanması və yerinə yetirilməsi üçün dövlət orqanlarının fəaliyyətini əlaqələndirməkdən ibarətdir. Bu vəzifələrin həyata keçirilməsi üçün İdarələrarası komissiya tərəfindən bir sıra işlər görülməlidir".

Ali Məclisin Sədri Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın fəaliyyət istiqamətləri barədə tapşırıqlar verərək deyib: "Komissiya dövlət sirri təşkil edən məlumatların qeyri-qanuni yayılmasının qarşısını almalı, dövlətin təhlükəsizliyinə ziyan vuran belə hal baş verdikdə fakt üzrə materiallara baxmalı və rəy verməlidir. Komissiyada təmsil olunan orqanlar əsasən dövlət sirrinə aid edilən məlumatlar barəsində sərəncam vermək səlahiyyətlərinə malikdirlər. Ona görə də həm komissiyada təmsil olunan, həm də bu səlahiyyətlərə malik digər orqanlar dövlət sirrinə aid edilən məlumatlar siyahısına uyğun olaraq məxfiləşdirilməli məlumatların geniş siyahısını tərtib etməli və bu siyahılara daxil edilmiş məlumatların məxfilik dərəcələrini müəyyənləşdirməlidirlər".

Ali Məclis Aparatının müvafiq şöbəsi dövlət sirrinə aid edilən məlumatların siyahısını və digər normativ aktları komissiyada təmsil olunan orqanlarla birlikdə hazırlayıb təsdiq edilmək üçün Ali Məclis Sədrinə təqdim etməlidir. Komissiya dövlət sirri təşkil edən məlumatların qanunla müəyyən edilmiş məxfilik müddətlərinə aidiyyəti orqanlarda əməl edilməsini nəzarətdə saxlamalı, zərurət olduqda həmin müddətlərin uzadılması məsələsinə baxılmalıdır.

Ali Məclisin Sədri deyib: "Muxtar respublikada dövlət sirrinin mühafizəsi sahəsində səlahiyyətlər Dövlət Təhlükəsizliyi Xidmətinə verilmişdir. Xidmət əsasnaməsi ilə müəyyən edilmiş vəzifələrlə yanaşı, həm də aidiyyəti orqanlarda məxfiləşdirilməli məlumatların siyahılarının yenilənməsini nəzarətdə saxlamalı, onların məxfilik dərəcəsinə uyğunluğunu vaxtaşırı, azı 5 ildə bir dəfə yoxlamalıdır. Dövlət orqanlarında, müəssisə, idarə və təşkilatlarda dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələrin fəaliyyətinə metodiki köməklik göstərilməli, dövlət sirri təşkil edən məlumatların qorunmasına dair tələblərə əməl edilməsi nəzarətdə saxlanılmalıdır. Elektron sənəd dövriyyəsi və mübadiləsi bu sahədə dövlət sirri təşkil edən məlumatların mühafizəsi məsələsini zərurətə çevirmişdir. Ona görə də Dövlət Təhlükəsizliyi Xidməti Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birlikdə tərkibində dövlət sirri təşkil edən məlumatlar olan informasiya sistemlərinin ekspertizasını aparmalı, informasiyanın mühafizəsinə, məxfilik rejiminə və texniki kəşfiyyat fəaliyyətinə qarşı tədbirlər görməli, lisenziyalı proqram təminatından istifadə olunmalı, texniki vasitələrin məlumat sızmasından qorunmasını, habelə onlardan məlumat çıxarılması üçün istifadə oluna bilən elektron vasitələrin aşkarlanması və zərərsizləşdirilməsini təmin etməlidirlər".

Müşavirədə tapşırılıb ki, İdarələrarası Komissiyanın qərarlarının icrası dövlət orqanları, müəssisə, idarə və təşkilatları üçün məcburidir. Ona görə də komissiyanın üzvləri səlahiyyətləri daxilində qərarların icrasına nəzarət etməlidirlər. Komissiyada təmsil olunan orqanların rəhbərləri dövlət sirrinin mühafizəsi işini təşkil etmək üçün məsul şəxsləri müəyyənləşdirməli və onlar dövlət sirrinin mühafizəsi ilə bağlı maarifləndirilməlidirlər. Eyni zamanda, dövlət sirrinin mühafizəsi sahəsində fəaliyyət göstərən əməkdaşların bilik və peşəkarlıq səviyyəsi daim artırılmalı, komissiya tərəfindən müvafiq seminarlar keçirilməli və vəzifələr izah olunmalıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq mühafizə orqanları ilə iş şöbəsi Dövlət Təhlükəsizliyi Xidməti ilə birlikdə dövlət sirrinin mühafizəsi ilə bağlı qəbul olunmuş normativ hüquqi aktların aid təşkilatlara verilməsini təmin etməlidir.

Ali Məclisin Sədri müşavirəyə yekun vuraraq deyib ki, dövlət sirrinin mühafizəsi ilə bağlı müəyyənləşdirilən vəzifələrin icrasında komissiya üzvləri məsuliyyətlərini artırmalı, verilən tapşırıqlar diqqətdə saxlanmalı və fəaliyyət bu istiqamətdə qurulmalıdır.

# Daşkənddə keçirilən Türkdilli Dövlətlərin Biznes və İnvestisiya Forumunda Azərbaycan sahibkarları iştirak etmişlər







5 oktyabr 2019-cu ildə Özbəkistanın paytaxtı Daşkənd şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) üzvü olan ölkələrin Biznes və İnvestisiya Forumu keçirilmişdir.

Bu il 10 yaşını qeyd edən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində təsis edilmişdir.

Özbəkistan Baş Nazirinin müavini, Maliyyə naziri Jamşid Kuçkarovun moderatorluğu ilə keçirilən forumda iqtisadiyyatın müxtəlif sahələrini təmsil edən 60 nəfərə yaxın tərkibdə Azərbaycan nümayəndə heyəti də iştirak etmişdir. Azərbaycan nümayəndə heyətinə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev rəhbərlik etmişdir.

Forumda tikinti materiallarının istehsalı, dərman vasitələri, kənd təsərrüfatı, turizm, qida sektoru, tekstil, informasiya və rabitə texnologiyaları, kimya, neft və qaz sənayesi, maşınqayırma, elektrik mühəndisliyi və digər sahələrdə çalışan, müxtəlif türkdilli ölkələrdən gələn 400-dən artıq iş adamı iştirak etmişdir.

Forumun rəsmi hissəsində Özbəkistan Baş Nazirinin müavini, Maliyyə naziri Jamşid Kuçkarov bu ölkələr arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi vacibliyini vurğuladı.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyev Özbəkistanın bu quruma üzv olmasını mühüm hadisə adlandırdı, bundan sonra üzv ölkələr arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində görüləcək işlər barədə məlumat verdi.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda genişmiqyaslı iqtisadi islahatların həyata keçirildiyini, qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülmüş işlərin ölkə iqtisadiyyatının inkişafına əsaslı dərəcədə təsir göstərdiyini qeyd etdi. M.Musayev bu ilin 6 ayında Azərbaycanın qeyri-neft sənayesinin 15,7 faiz, ticarət dövriyyəsinin 20 faizdən çox, qeyri-neft ixracının 15 faiz, kənd təsərrüfatı məhsullarının istehsalının isə 13 faiz artdığını vurğuladı.

M.Musayev, həmçinin Azərbaycanla Özbəkistan arasında ticarət münasibətləri barədə məlumat verərək bildirdi ki, ölkələrimiz arasında ticarət dövriyyəsi ötən il 43,9 milyon ABŞ dolları təşkil edib. Bu, 2017-ci illə müqayisədə 46,3 faiz artım deməkdir. Bu tendensiya cari ildə də davam etməkdədir. Belə ki, bu ilin 7 ayı ərzində Özbəkistan və Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 83 faiz artaraq 38,6 milyon dollara çatmışdır. Qeyd edək ki, hazırda Azərbaycanda ticarət, sənaye, nəqliyyat, xidmət və digər sahələri əhatə edən Özbəkistan kapitallı 30-a yaxın şirkət, Özbəkistanda isə Azərbaycan kapitallı 80-ə yaxın şirkət fəaliyyət göstərir. Bununla belə, ticarət dövriyyəsinin və qarşılıqlı iqtisadi münasibətlərin inkişafı üçün münbit şərait mövcuddur.

Hesab edirik ki, Özbəkistanla Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi ölkələrimizin real potensialını əks etdirmir. Hər iki ölkə bu sahədə əməkdaşlığı daha da genişləndirmək niyyətindədir.

Forumda digər türkdilli ölkələrin nümayəndələri də çıxış edərək əlaqələrin daha da genişləndirilməsi istiqamətində həyata keçiriləcək işlərdən danışdılar.

Biznes və İnvestisiya Forumu çərçivəsində, Daşkənd şəhərində Türkdilli ölkələrin Biznes Şurasının İdarə Heyətinin görüşü keçirilmişdir. Görüşdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstan nümayəndələri iştirakçı, Macarıstan nümayəndələri müşahidəçi və Türkmənistan nümayəndələri qonaq qismində iştirak etmişlər. Həmin görüşdə Türkdilli ölkələrin Biznes Şurasının İdarə Heyəti üzvlərinin məruzələri dinlənildi.

Özbəkistan Ticarət-Sənaye Palatasının sədri Adxam İkramov, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev, Türkiyə Ticarət Palatası və Birjasının prezidenti, Türk Şurası Ticarət-Sənaye Palatasının sədri Rifat Hisarçıklıoğlu çıxış edərək Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişinin və digər məsələlərin əhəmiyyətindən danışdılar.

Qeyd olundu ki, Türk Şurasının yaradılması bu ölkələr arasında inteqrasiyanın daha da gücləndirilməsinə, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksək səviyyəyə qaldırılmasına təkan vermişdir. Bununla belə, Türk Şurasına daxil olan ölkələr arasında xarici ticarət əlaqələrinin inkişafına ciddi önəm verilməsinə ehtiyac vardır.

Forum çərçivəsində Türk dünyasının iş adamlarının ikitərəfli görüşləri keçirildi. Belə ki, Azərbaycanın iri şirkətlərindən olan "Paşa Holdinq", "Cahan Holdinq", "Neqsol Holdinq", "Testec Qrup", "Akkord Tikinti" ASC, "Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası", "Nar istehsalçıları və ixracatçıları Assosiasiyası" və digər iri təşkilatların təmsilçiləri Türkdilli Dövlətlərin iş adamları ilə görüşərək qarşılıqlı faydalı əməkdaşlıq barədə razılıq əldə etdilər.

Həmin gün "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin Sədri Məmməd Musayevin Özbəkistan Respublikası Aqrobankının rəhbəri Rüstəm Mamatkulov ilə işgüzar görüşü keçirilmişdir. Görüş zamanı iki ölkə arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparılmışdır. Məmməd Musayev dəvətlərinə görə cənab Mamatkulova təşəkkür edərək Azərbaycanın biznes və investisiya mühiti, bank və maliyyə sahəsi barədə geniş məlumat verdi və gələcək əməkdaşlığın inkişafı naminə Aqrarkredit QSC ilə Özbəkistan Aqrobankı arasında əməkdaşlığın yeni müstəviyə keçməsinin vacibliyini vurğuladı. Rüstəm Mamatkulov Özbəkistanda aparılan islahatlar barədə məlumat verdi və Özbəkistan tərəfi olaraq bir çox sahələrdə əməkdaşlıq etmək niyyətində olduqlarını bildirdi. Görüşdə "Aqrarkredit" QSC ilə Özbəkistan Aqrobankı arasında tez bir zamanda əməkdaşlıq haqqında memorandum imzalanması haqqında tərəflər razılığa gəldilər.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev iştirakçıları cari ilin 14-15 oktyabr tarixlərində Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü çərçivəsində keçiriləcək biznes foruma dəvət edərək qeyd etdi ki, türkdilli dövlətlər arasında ticarət əlaqələri gündən-günə güclənir və düşünürəm ki, bu sahədə hələ çox işlər görməliyik. Azərbaycan türkdilli ölkələrin iqtisadiyyatına 15 milyard dollar sərmayə qoymuşdur və bu istiqamətdə işlər davam etdirilir.

Görüşdə digər ölkələrin nümayəndələri də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının inkişaf perspektivləri ilə bağlı öz fikirlərini bölüşdülər.

Daşkənd şəhərində keçirilən Biznes və İnvestisiya Forumu 6 oktyabr 2019-cu ildə öz işini başa çatdırıb.

***"Azərbaycan"***

# Hər məktəbin öz "forması", öz bazarı var...

Artıq yeni tədris ilinə start verilib, bilik günü qeyd edilib, ümumtəhsil məktəblərində al-əlvan geyimli şagirdlər elmin sirlərinə vaqif olma yolunda addımlamağa başlayıblar. Təhsil millətin gələcəyidir və sadalananların kontekstində də, demək olar ki, bütün bunlar ürəkaçan və sevindirici məqamlardır.

Lakin üzərində duracağımız, vurğu qoyacağımız məsələ məhz bu al-əlvan geyimlərlə bağlıdır. Baxmayaraq ki, neçə illərdir ölkəmizdə "vahid məktəbli forması" tətbiq olunur. Yəni vahid məktəbli forması ifadəsi bütün dövlət ümumtəhsil məktəblərində müəyyən olunan modeldə, rəngdə, materialda, tikilişdə, qiymətdə olan geyimlərdən istifadə olunmasını özündə ehtiva edir. Bununla belə hazırkı tədris ili də daxil olmaqla, neçə illərdir ki, məktəblərdə "vahid məktəbli geyimi" sadəcə ifadə kimi işlədilir, öz həqiqi funksiyasını yerinə yetirmir. Hər məktəbin özünün istədiyi formada, rəngdə, qiymətdə olan geyimləri var.

## Bəs zorla satılan BTE-nin paltarları?

Nazirlər Kabinetinin 2011-ci il tarixli qərarı ilə təsdiq edilən Ümumtəhsil Məktəblərinin Nümunəvi Nizamnaməsinə əsasən, orta təhsil alanların geyim forması hər məktəbin öz nizamnaməsi ilə müəyyən olunur. Yəni, hər məktəb öz şagirdləri üçün vahid geyim forması tətbiq edə bilər. Həmin prosesə nəzarət də elə məktəbin özü tərəfindən həyata keçirilir.

Qərardan da aydın görünür ki, əslində ölkənin ümumtəhsil məktəblərində vahid məktəbli forması heç zaman olmayıb və indi də yoxdur. Sual olunur, bəs, o zaman Bakı Tikiş Evinin hazırladığı məktəbli formaları niyə zorla məktəblərdə satılırdı? Niyə valideynlərə onu almaq, şagirdlərə isə geyinmək məcbur edilirdi? O da bir ayrı məsələdir ki, baha qiymətə keyfiyyətsiz parçadan hazırlanmış, bərbad tikilişli paltarlardan söhbət gedir. Vahid forma tətbiqinə başlanılan ilk zamanlarda bütün məktəblərdə tələb edilirdi ki, şagirdlərin geyimləri məhz Bakı Tikiş Evinə məxsus olsun. Buna ciddi nəzarət vardı və hətta BTE-nin geyimlərində olmayan şagirdlər dərslərə buraxılmır, valideynləri iclaslara çağırılırdı, danlanırdı...

Məktəb direktorları, sinif rəhbərləri cidd-cəhdlə bu məsələnin tənzimlənməsi istiqamətində "səylə" çalışır, həmçinin adıçəkilən tikiş evinə məxsus olmayan və özlərinin iddia etdyi kimi "saxta" emblemli paltar satanlara və alanlara qarşı mübarizə aparırdılar.

5-6 il öncə isə mənzərə dəyişdi. Müəyyən məktəblər yenə də BTE-nin paltarlarından istifadə etsə də, bir çox orta tədris müəssisəsi özlərinin təyin etdiyi geyim tərzinə uyğun məktəbli formalarına keçdilər. Bu, "məktəbli geyiminə" istədikləri qiyməti qoydular ki, bu da kifayət qədər yüksəkdir.

İndi hər məktəbin özünəməxsus geyimini satmaq üçün xüsusi mağazalar fəaliyyət göstərir. Övladı belə məktəblərdə təhsil alan valideynlər bu ünvanlardan hər məktəbli üçün 100 manatdan artıq xərc çəkərək geyim alırlar. Problem bununla da bitmir. Çünki vaxtaşırı bu formaların modeli, rəngi dəyişdirilir. Tutaq ki, builki ətəyin rəngi mavi olubsa, gələn il onun rəngini yaşıla dəyişib valideynləri həmin geyimi almağa məcbur edirlər. Belədə isə əgər bu il alınan forma növbəti il məktəblinin əyninə olsa belə, yenisini almağa məcburdur. İki, yaxud üç övladı məktəbə yollanan valideynlərin hər il təkcə məktəbli geyiminə bu qədər xərc çəkməsi isə, təbii ki, haqlı narazılıqlar doğurur.

Belə demək mümkündürsə, həmin məktəblərin direktorları şagirdlərin geyimi üzərində açıq bazar qurublar...

## Vahid formanın mahiyyəti uşaqlar arasında sosial bərabərliyin təmin edilməsidir

Yuxarıda da qeyd olunduğu kimi, ilk təşəbbüs kimi vahid məktəbli formasının tətbiqi özünü doğrultmadı. Bəlkə obyektiv, bəlkə də daha çox subyektiv səbəblər üzündən...

Və həmin səbəblər üzündən yenidən bu məsələnin lazımi qaydada tənzimlənməsi və tətbiqinin vacibliyi gündəmə gəlib.

Təhsil üzrə ekspert Nadir İsrafilov deyir ki, "vahid məktəbli forması" sovet dönəmində də olub, müstəqillik əldə etdiyimiz dövrdə də. Belə bir məktəbli formasının bütün məktəblərdə tətbiq oluna biləcəyi barədə məsələ Milli Məclisin Elm və təhsil komitəsində müzakirə olunan "Ümumi təhsil haqqında" qanun layihəsində də öz əksini tapıb. Komitənin sədri İsa Həbibbəyli hətta bəzi kateqoriyadan olan şagirdlərə məktəbli formalarının dövlət hesabına veriləbiləcəyini də dilə gətirib. Xatırlatmaq yerinə düşər ki, Lidiya Rəsulovanın təhsil naziri (1993-1997-ci illər) olduğu dövrdə məktəbli geyiminə aydınlıq gətirmək məqsədilə üst açıq rəngli, alt tünd formanı əks etdirən əmr verilmişdi. Bu, o anlama gəlirdi ki, oğlanlar məktəbə açıq rəngli köynəklərdə, tünd rəngli şalvarlarda, qızlar isə açıq rəngli kofta və tünd rəngli yubkalarda gəlməlidirlər: "Sonrakı dövrdə də vahid məktəbli formasına keçidlə bağlı əmr imzalandı. Amma əmrin məzmun və mahiyyəti qaldı bir kənarda, başladılar özfəaliyyətə. Bəzi elit məktəblər, hansı ki, şagirdlərinin əksəriyyəti imkanlı ailələrin övladları idi, özləri üçün xüsusi, yəni digər məktəblərdən seçilən forma tikdirməyə başladılar. Hərə bir rəng, bir element seçdi. Bakı Tikiş Evinin geyimlərini bəyənməyənlər Türkiyədən parça sifariş etdilər, gizli sexlər məktəbli forması tikməyə başladılar, beləliklə mənşəyi bəlli olmayan saxta formalar dövriyyəyə yol açdı".

Ekspert bildirir ki, vahid məktəbli formasının mahiyyəti uşaqlar arasında sosial bərabərliyin təmin edilməsidir. Əgər şagird görürsə ki, hansısa məktəbin şagirdi geyimi ilə ondan üstündür, hansısa şagirdin geyimi onun geyimindən bahalıdır, burada sosial ədalətdən danışmaq olmaz. Belə hallar uşaqlara mənfi təsir göstərir və əskiklik kompleksi yaradır. Buna görə də məsələyə yenidən baxılması zəruriliyi ortaya çıxdı ki, bu da nəinki lazımdır, hətta vacibdir: "Ümid edək ki, məktəbli forması ilə bağlı əvvəlki illərdə yaranan narahatçılıqlar və yol verilən yanlışlıqlar aradan qaldırılacaq".

## "Geyimlərin tikilməsi ilə BTE məşğul olmamalıdır"

Təhsil üzrə ekspert Kamran Əsədov deyir ki, maddi imkanlarından asılı olmayaraq, bütün şagirdlərin məktəbə eyni geyimdə gəlməsi sosial bərabərliyin real nümunələrindən biri kimi həmişə bəyənilib, məktəblilərin mənəvi tərbiyəsinə, təlimin demokratik əsaslarda qurulmasına müsbət təsir göstərib. Respublikamızın, habelə yaxın və uzaq xarici ölkələrin bu sahədəki təcrübəsi göstərir ki, məktəbli forması təhsil aldıqları müəssisədə, eyni zamanda ictimai həyatda şagirdlərin öz fəaliyyətlərinə və davranışlarına məsuliyyətlə yanaşmalarında, cəmiyyətdə özlərinə qarşı hörmət və rəğbət hissi oyadılmasında, bütövlükdə məktəbin nüfuzunun qaldırılmasında əhəmiyyətli rol oynayır.

K.Əsədovun fikrincə, bütün məktəblər eyni məktəbli formasından istifadə etməyə bilər: "Hər bir məktəbin pedaqoji şurası qərar qəbul edib 4-5 layihədən istədikləri dizaynda şagird forması müəyyən edə bilərlər. Burada vacib məqam odur ki, məktəbli formasının tətbiqi barədə tədbirlər hər bir məktəb üzrə bilavasitə valideyn komitəsinin, məktəb-valideyn assosiasiyasının, şagird özünüidarə təşkilatının iştirakı ilə müzakirə edilib müvafiq qərar qəbul olunduqdan sonra həyata keçirilə bilər. Heç bir məktəb rəhbəri bununla bağlı təkbaşına qərar qəbul edə bilməz".

Təhsil ekspertinin sözlərinə görə, vahid məktəbli forması ilə bağlı rayonlarda müəyyən çatışmazlıqlar var ki, bu da hava şəraiti ilə bağlıdır, xüsusilə qış fəslində. Valideynlər bildirir ki, məktəbli formaları nazik olduğu üçün soyuq havalarda uşaqlar üşüyür, onlara soyuq dəyir: "Məktəbli formaları iqlim və hava şəraitinə görə təşkil olunsa, ondan istifadə ilə bağlı problem olmaz. Digər tərəfdən isə geyimlərin tikilməsi ilə BTE məşğul olmamalıdır. Bu, keyfiyyətə ciddi təsir görtərə və rəqabət mühitini aşağı sala bilər. Ona görə də Təhsil Nazirliyi 4-5 eskizi məyyən edib ictimaiyyətə təqdim etməli və məktəblərə göndərməlidir. Onun standartlara uyğun olaraq tikilməsini valideyinlər özləri fərdi qaydada, ya kollektiv şəkildə, ya da ki, məktəblə birlikdə həyata keçirməlidirlər".



## "Ziyanın yarısından qayıtmaq da qazancdır"

Milli Məclisdə vahid məktəbli geyimi ilə bağlı "Ümumi təhsil haqqında" qanuna edilən dəyişikliyə əsasən 2020-2021-ci tədris ilindən bütün orta məktəblərdə vahid məktəbli forması tətbiq ediləcək.

Amma həyata keçiriləcək adıçəkilən yeniliklə bağlı müəyyən suallar qaranlıq qalır. Məsələn, niyə bu zamana qədər vahid məktəbli forması ilə bağlı məsələ nəzarətsiz qalıb və bu məsələ tənzimlənməyib, standartlar, normativlər müəyyənləşməyib? Neçə illər ərzində tətbiq olunan uğursuz vahid məktəbli forması təcrübəsinin təkrarlanmaması üçün indi bu prosesə nəzarəti kim həyata keçirəcək: Təhsil Nazirliyi, yoxsa başqa bir qurum?

Satışa çıxarılan formaların qiyməti kim tərəfindən müəyyənləşdiriləcək? Məktəb direktorları yenə də geyimlərin qiyməti, haradan alınması ilə bağlı məsələyə qarışa, tələb qoya biləcəklərmi? Təəssüf ki, müvafiq suallarla bağlı Təhsil Nazirliyinə ünvanladığımız sorğu cavabsız qaldı.

Onu da əlavə edək ki, bu il övladlarına məktəbli geyimi alan valideynlər, gələn il yenidən məktəbli forması almalı olacaqlar, yəni bir daha xərcə düşəcəklər...

Təsəlli isə odur ki, ziyanın yarısından qayıtmaq da qazancdır, Ümid edək ki, bu dəfə vahid məktəbli forması həqiqətən də adında ehtiva olunan "vahid" sözünə uyğun tətbiq ediləcək. Direktorların gəlir mənbəyinə çevrilməyəcək, valideynlərin meyarlarına, büdcələrinə, şagirdlərin də rahatlığına və zövqünə uyğun olacaq...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# DSX-nin Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin "Keşikçi qala" sərhəd zastavası kompleksi istifadəyə verilib

Azərbaycan sərhəd mühafizəsinin inkişafına göstərilən ali dövlət qayğısı sayəsində ölkəmizin sərhədlərinin etibarlı mühafizəsi infrastrukturunun təkmilləşdirilməsi tədbirləri uğurla davam etdirilir, sərhədçilər üçün ən müasir tələblərə cavab verən hərbi obyektlərin sürətli inşası həyata keçirilir.













Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən bildiriblər ki, oktyabrın 6-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin "Keşikçi qala" sərhəd zastavası kompleksi istifadəyə verilib. Bu münasibətlə təşkil olunmuş təntənəli mərasimdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə milli sərhəd mühafizəsi strategiyasının uğurla reallaşdırılması, dövlət sərhədlərinin mühafizəsi məsələlərinə Ali Baş Komandan səviyyəsində böyük önəm verilməsi sayəsində Dövlət Sərhəd Xidmətinin maddi-texniki bazasının möhkəmləndirilməsini, bütün hərbi hissə və bölmələrdə şəxsi heyət üçün lazımi xidmətin və məişət şəraitinin yaradılmasını, yeni istifadəyə verilən sərhəd zastavasının da məhz bu ali diqqətin növbəti təzahürü olduğunu qeyd edib. Azərbaycan-Gürcüstan dövlət sərhədinin hər zaman dostluq və strateji tərəfdaşlıq sərhədi olması, Gürcüstan sərhədçiləri ilə qarşılıqlı faydalı əməkdaşlığın yüksəksəviyyəli inkişafı xüsusi vurğulanıb.

Dəniz səviyyəsindən 850 metr hündürlükdə yerləşməklə böyük coğrafi sahəni əhatə edən "Keşikçi qala" sərhəd zastavasının qədim alban tarixinin yadigarı olan "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində yerləşməsi, burada xidmət aparan sərhədçilərin dövlət sərhədini mühafizə etməklə yanaşı, həm də tarixi-memarlıq abidələrimizin, xalqımızın milli-mədəni irsinin keşiyində dayanmaları qeyd edilib.

Dövlət sərhədlərinin etibarlı mühafizəsi üçün yerli əhalinin, Ağstafa Rayon İcra Hakimiyyətinin və hüquq mühafizə orqanlarının mühüm dəstəyi xüsusi qeyd olunub, həm dost Gürcüstan ilə, həm də düşmənlə həmsərhəd olan Ağstafa rayonunun rəhbərliyinə və ictimaiyyətinə sərhədçilərə göstərdikləri hərtərəfli köməyə görə minnətdarlıq ifadə olunub.

Tədbirdə iştirak edən Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev sərhədçiləri təbrik edərək, onlara şərəfli xidmətlərində uğurlar arzulayıb.

Sonra tədbir iştirakçıları sərhəd zastavasında yaradılmış şəraitlə yaxından tanış olublar. Sərhəd zastavasında şəxsi heyət tərəfindən xidməti fəaliyyətin yüksək səviyyədə həyata keçirilməsi üçün müasir tələblərə cavab verən yataqxana, yeməkxana, xüsusi təyinatlı otaqlar, təlim şəhərciyi, sıra meydanı, idman meydançası, anbarlar, mərkəzləşdirilmiş istilik və işıqlandırma sistemi, hamam-camaşırxana və digər tikililər sərhədçilərin istifadəsinə verilib.

*"Azərbaycan"*

# Siyahıyaalma əhali haqqında dəqiq məlumatların əldə edilməsinə imkan yaradır

## Bu məlumatlar ölkənin gələcək inkişaf prioritetlərini düzgün müəyyənləşdirməyə kömək edir

Bu il oktyabrın 1-dən ölkədə start götürmüş mühüm tədbir - əhalinin siyahıyaalınması davam edir və oktyabrın 10-da başa çatacaq. Bu günlərdə Azərbaycanın hər şəhər və kəndində, qəsəbə və yaşayış massivində siyahıyaalma məntəqələrinin işçiləri evlərə gəlir, sakinlər onların təqdim etdiyi sorğu və siyahıyaalma vərəqələrindəki sualları cavablandırırlar.





Hər sorğu vərəqəsində altsuallarla birlikdə 46, siyahıyaalma vərəqəsində isə 6 sual öz əksini tapıb. Ümumilikdə 52 suala cavab verilir.

Bu sualların cavabları, nəticə etibarilə bütövlükdə siyahıyaalma əhalinin hətta kiçik məskunlaşma yerlərində həyat fəaliyyətini hərtərəfli xarakterizə edən kompleks göstəriciləri bilməyə imkan verir. Başqa sözlə, yalnız bu məlumatlara əsasən, əhalinin təhsil səviyyəsinə, yaşayış üçün əsas gəlir mənbəyinə aid məlumatları əldə etmək olur. Ayrı-ayrı yaşayış məntəqələrində, bütövlükdə isə ölkədə ailələrin sayını, onların tərkibini, yaşayış üçün gəlir mənbələrini, ev təsərrüfatlarının mənzil şəraitini öyrənmək mümkündür.

Bu günlərdə keçirilən siyahıyaalmaya əslində xeyli vaxtdır hazırlıq görülürdü. Belə ki, 2016-cı il sentyabrın 7-də Prezident İlham Əliyev "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" fərman imzalamışdır. Nazirlər Kabinetinin 16 dekabr 2016-cı il tarixli qərarına əsasən və Dövlət Statistika Komitəsinin təsdiq etdiyi təqvim planına uyğun olaraq, siyahıyaalmanın başlanması ərəfəsində bu mühüm tədbirlə bağlı bütün hazırlıq işləri yekunlaşdırılmışdır.

Qeyd edək ki, cavablandırılan sualların əks olunduğu siyahıyaalma və sorğu vərəqələri Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyada təmsil olunan 19 dövlət qurumu, həmçinin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə razılaşdırılaraq təsdiq edilib. Təsərrüfatbaşına uçot sənədləri Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Dövlət Statistika Komitəsinə təqdim edilmiş inzibati-ərazi vərəqələrinin sxematik xəritələri, yaşayış məntəqələrinin sxematik planları əsasında respublikanın inzibati-ərazi vahidləri üzrə təşkilati planlar tərtib olunmuşdur. Bunun da nəticəsində ölkə ərazisi 720 siyahıyaalma, 6777 təlimatçı və 33907 sayıcı məntəqəsinə bölünmüşdür. Siyahıyaalma məntəqələri işçilərlə komplektləşdirilmiş və onlar təlimatlandırılmışlar.

Əhali bu tədbirlə bağlı xeyli vaxtdır məlumatlandırılır. Belə ki, yerli icra hakimiyyətləri tərəfindən müəyyən edilmiş dislokasiya üzrə yerləşdirilən plakat və banerlər insanlara bu barədə ətraflı məlumat verir. Bu ilin aprel ayından başlayaraq televiziya kanalları və aparıcı elektron media vasitələrində videoçarxlar göstərilir. Paytaxt sakinləri mərkəzi küçə və prospektlərdə quraşdırılmış elektron lövhələrdə yayımlanan videoçarxların hər gün şahidi olurlar.

Xatırladaq ki, Azərbaycan əhalisinin demoqrafik vəziyyəti haqqında məlumatların əldə edilməsi ilk dəfə Çar Rusiyası dövründə - 1897-ci il Birinci Ümumrusiya siyahıyaalmasının keçirilməsi nəticəsində mümkün olub. SSRİ dövründə isə Azərbaycan əhalisinin siyahıyaalınmaları 1926, 1939, 1959, 1970, 1979 və 1989-cu illərdə aparılıb. Hazırda keçirilən siyahıyaalma müstəqillik dövründə Azərbaycanın bu qəbildən olan sayca üçüncü tədbiridir.

Tədbir başa çatdıqdan sonra siyahıyaalma materialları bu ilin sonunadək Siyahıyaalma qrupuna təhvil veriləcək. Gələn il ərzində materialların işə qəbul olunacaq operatorlar vasitəsilə onların elektron məlumat sisteminə daxil edilməsi, proqram təminatı vasitəsilə məntiqi yoxlanılması prosesi həyata keçiriləcək. Sonrakı il yarım ərzində məlumatlar emal ediləcək, alınan çıxış cədvəlləri əsasında siyahıyaalmanın yekunlarına dair məcmuələr nəşr olunaraq istifadəçilərə çatdırılacaq.

2019-cu ilin siyahıyaalınması milli səviyyədə demoqrafik və sosial-iqtisadi inkişafa aid proqnozların hazırlanması ilə yanaşı, beynəlxalq tövsiyələr və milli prioritetlər əsasında bundan əvvəlki siyahıyaalınmadan ötən dövr ərzində ölkə əhalisi haqqında dəqiq və müfəssəl məlumatların əldə edilməsi məqsədinə xidmət edir. Bu tədbir eləcə də Prezident İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli gələn hədəflərin qiymətləndirilməsində mühüm rol oynayacaq. Əldə olunan materiallar ölkəmizin gələcək inkişaf prioritetlərinin düzgün müəyyənləşdirilməsində əsas informasiya mənbəyi olacaq.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Tərtərdə pambıqçılıq aparıcı sahəyə çevrilir

Prezident İlham Əliyevin ölkədə ənənəvi kənd təsərrüfatı sahələrini inkişaf etdirmək, bu sahədə əvvəlki şöhrəti qaytarmaq barədə göstərişləri tərtərlilərin də fəaliyyətinə yeni istiqamət verdi. O cümlədən, unudulub arxa plana keçirilmiş pambıqçılığa münasibət kökündən dəyişdi.





Həyata keçirilən təşkilat-təsərrüfat tədbirləri sayəsində rayonda həm məhsul istehsalı artır, həm də təcrübəli pambıqçıların sayı. Adı qabaqcıllar sırasında çəkilənlərdən biri Köçərli kəndinin fermeri Əvəz Mirzəyevdir. Onun ucu-bucağı görünməyən tarlası bu il də başdan-başa ağ örpəyə bürünmüşdür.

Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov və MKT İK Tərtər filialının direktoru Feruz Hacıyevlə də Əvəz kişinin tarlasında rastlaşdıq. Hal-əhval tutandan sonra söhbətə M.Məmmədov başladı. Dedi ki, ölkə rəhbərinin təşəbbüsü ilə pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün qəbul olunan Dövlət Proqramının icrası bizim rayonda da bu sahəyə böyük təkan verdi.

Xüsusilə pambıqçılığın kənd təsərrüfatı texnikası ilə yüksək səviyyədə təminatı və məhsulun alış qiymətinin artırılması bu sahəyə marağı daha da artırdı. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, keçən il rayonumuzda 3300 hektar sahədə pambıq yetişdirilmiş, orta hesabla hər hektardan 24,8 sentner məhsul götürülmüş, qəbul məntəqələrinə 8200 tona yaxın "ağ qızıl" təhvil verilmişdir. Cari ildə isə pambıq əkinlərinin sahəsi bir qədər də genişləndirilərək 3427 hektara çatdırılmışdır. Əməktutumluğu ilə seçilən pambıqçılığın inkişafı fermerlərin sosial rifahını daha da yaxşılaşdırır. Odur ki, bu sahə rayonumuzda kənd təsərrüfatının aparıcı sahələrindən birinə çevrilir. Bu il orta məhsuldarlığı hər hektarda 30 sentnerə çatdırmaq əsas hədəfimizdir.



- Bəlkə də bundan çox olacaq, - deyə MKT İK Tərtər filialının direktoru Feruz Hacıyev söhbətə qoşuldu. İndi dayandığımız bu sahədə maşınlar son cərgələrin məhsulunu yığır. Nəticə sevindiricidir. İlkin hesablamalar göstərir ki, birinci üz yığımında məhsuldarlıq 41 sentnerdir. Sonda 50 sentner olacağına söz yoxdur. Bizim filialda keçən il hər hektarın orta məhsuldarlığı 32,8 sentner olmuşdur. Bu il 2017 hektar sahədə məhsul yetişdirmişik. Ortalama hər hektardan 35 sentner pambıq götürmək əzmindəyik. Hədəfə çatmaq üçün ciddi hazırlıq görmüşük. Bütün sahələrdə yarpaqların tökdürülməsi üçün keyfiyyətli dərmanlama aparılmışdır. Hazırda tarlalarda filialın 9 pambıqyığan maşını işləyir. Hər gün orta hesabla 260-280 ton pambıq yığılır.

Görüşüb söhbət etdiyimiz digər fermerlər, torpaq sahibləri və pambıqçılar da bildirdilər ki, torpaqların hər qarışından maksimum səmərəli istifadə etməyə çalışır, həvəslə əkib-becərirlər. Dövlətin göstərdiyi güclü dəstək bu işdə onlara qol-qanad verir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Etnospor Mədəniyyət Festivalına yekun vurulub





İstanbulda təşkil olunan Etnospor Mədəniyyət Festivalına yekun vurulub. Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən bildiriblər ki, dördüncü dəfə təşkil edilən festivala 16 ölkə qatılıb.

Festivalda ölkəmizi Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsindən və rəqs ansamblından ibarət 50 nəfərlik heyət təmsil edib.

Oktyabrın 3-dən 6-dək davam edən festival çərçivəsində keçirilən müxtəlif tədbirləri Türkiyənin müxtəlif bölgələri ilə yanaşı, dünyanın bir sıra ölkələrindən gəlmiş ümumilikdə bir milyondan artıq insan izləyib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi diqqəti və ali dəstəyi sayəsində qorunub saxlanılan və ardıcıl surətdə inkişaf etdirilən Qarabağ atlarının bu tədbirdə iştirakı xüsusilə əlamətdar olub. "Bir millət, iki dövlət" şüarı altında təqdim olunan "Azərbaycan kəlağayısı və Qarabağ atları" adlı şou-kompozisiya Azərbaycan kəlağayısının ecazkar gözəlliyini, milli-mədəni sərvətlərimiz sayılan və heyrətamiz xüsusiyyətləri ilə seçilən Qarabağ atlarının bənzərsizliyini ifadə etməklə tamaşaçıların böyük marağına səbəb olub və xüsusi zövqlə izlənilib.

Tədbirin sonunda iştirakçılar xüsusi medallar və fərmanlarla təltif ediliblər. Azərbaycan təmsilçilərinə mükafatları Türkiyə Respublikasının vitse-prezidenti Fuad Oqtay təqdim edib.

*"Azərbaycan"*

# Cocuq Mərcanlıda bu il ilk dəfə becərilən pambıq sahəsindən yüksək məhsuldarlıq əldə edilib

Doğma kəndlərinə qayıdan Cocuq Mərcanlı sakinləri uzun illər həsrətini çəkdikləri torpağı həvəslə əkib-becərirlər. Sakinlərin kənd təsərrüfatı ilə məşğul olmaları üçün dövlət tərəfindən burada mühüm tədbirlər görülüb.



Azərbaycan Prezidentinin müvafiq sərəncamları əsasında Cocuq Mərcanlı kəndində əkinlərin suvarma suyu ilə təmin olunması üçün nasos stansiyası, suvarma kanalı inşa edilib. Kənddə məskunlaşan ailələr taxıl, qarğıdalı, şəkər çuğunduru, pambıq, həmçinin bostan-tərəvəz bitkiləri becəriblər.

Bu il ilk dəfə pambıq becərən kənd sakini Oqtay Həziyev AZƏRTAC-a məhsuldarlığın yüksək olduğunu deyib: "Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi ilə Cocuq Mərcanlı kəndində əhalinin təhlükəsizliyi təmin olunub. Kəndin ətrafındakı sahələr uzun illərdən sonra əkin dövriyyəsinə cəlb edilib. Münbit torpaqlarımız var. Odur ki, əkilən bitkilərin məhsuldarlığı da yüksəkdir. Bu il digər kənd təsərrüfatı bitkiləri ilə yanaşı, 6 hektarda pambıq becərmişik. Aqrotexniki qaydalara düzgün və vaxtında əməl etdiyimiz üçün məhsulumuz da yaxşıdır. Artıq kombaynla birinci yığım başa çatıb. Hər hektardan 41 sentner məhsul götürmüşük. Məhsuldarlıq göstəricisi yığımın sonunadək daha da yüksələcək".

Qeyd edək ki, Cocuq Mərcanlı kəndi Cəbrayıl rayonunun işğaldan azad edilmiş yeganə yaşayış məntəqəsidir. 1993-cü ilin oktyabrında Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunan kənd 1994-cü il yanvarın 5-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ordumuzun həyata keçirdiyi uğurlu Horadiz əməliyyatı zamanı Füzuli rayonunun 22 yaşayış məntəqəsi ilə birgə düşmən tapdağından azad edilib. Lakin Lələtəpə yüksəkliyi düşmənin nəzarətində olduğundan kənddə yaşayış mümkün deyildi. Horadiz əməliyyatından 22 il sonra, 2016-cı ilin aprelində Azərbaycan Ordusu ermənilərin təxribatına layiqli cavab verərək hərb tariximizə daha bir şanlı səhifə yazdı. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu əkshücum əməliyyatı nəticəsində minlərlə hektar torpağımız, o cümlədən Lələtəpə yüksəkliyi işğaldan azad olundu. Bu, Cocuq Mərcanlı kəndinin təhlükəsizliyini də möhkəmləndirdi. Bu qələbə nəticəsində cocuq mərcanlılılar doğma yurdlarına qayıdaraq yenidən öz həyatlarını qurublar.

# Hesablama Palatasında bir neçə nəzarət tədbiri üzrə auditor hesabatları müzakirə edilib

Azərbaycan Respublikası Hesablama Palatasının növbəti kollegiya iclasında həyata keçirilmiş bəzi nəzarət tədbirləri üzrə auditor hesabatları müzakirə olunub.

Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hesabatlar Azərbaycan Respublikası Təhsil Nazirliyinin 1 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinə ayrılan büdcə vəsaitlərinin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrasına, eləcə də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 2018-ci il üzrə illik maliyyə hesabatlarına dair məsələləri əhatə edib.

Kollegiya iclasında hər bir nəzarət tədbiri üzrə auditor hesabatları barədə müvafiq qərar qəbul olunub. Nəzarət tədbirlərinin nəticələri üzrə qərarın icrasını təmin etmək məqsədilə aidiyyəti qurumlara kollegiya qərarının və auditor hesabatının göndərilməsi, Milli Məclisə müvafiq məlumatın təqdim olunması qərara alınıb.

İclasda, həmçinin iş planı ilə nəzərdə tutulmuş kənar dövlət maliyyə nəzarəti tədbiri ilə bağlı proqram müzakirə olunaraq təsdiqlənib.

## Azərbaycan Respublikası Mərkəzi Bankının əməkdaşları üçün tibbi sığorta xidmətlərinin alınması üzrə *tender elanı*

Azərbaycan Respublikası Mərkəzi Bankının əməkdaşlarının tibbi sığortalanması üzrə "Azərbaycan" qəzetinin 03 sentyabr 2019-cu il tarixli nömrəsində dərc edilmiş tender, Tender komissiyasının 02 oktyabr 2019-cu il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 50-1.2-ci və 50-1.3-cü maddələrinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz əməkdaşları üçün tibbi sığorta xidmətlərinin alınması üzrə açıq tender keçirir.

Tender proseduru 21 noyabr 2019-cu il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün müraciət (ərizə);*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 08 yanvar 2020-ci il tarixinədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyətini həyata keçirmək hüququ verən lisenziyanın və tibbi sığorta fəaliyyətinin həyata keçirilməsinə icazənin surəti;*
- *son 1(bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının tibbi sığorta fəaliyyəti sahəsində ən azı 3 (üç) il təcrübəsinin olması barədə məlumat;*
- *sığorta qanunvericiliyinə uyğun olaraq onunla əlaqəli şəxs olmayan və ya iddiaçı üzərində əhəmiyyətli nəzarəti həyata keçirməyən ən azı 2 (iki) korporativ müştəri tərəfindən verilən tövsiyə məktubu;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 20 noyabr 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 08 noyabr 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İştirak haqqı **100 (bir yüz) manatdır.** Tenderdə iştirak haqqı Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına köçürülməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**

| | |
|---|---|
| **Kod:** | **501004** |
| **VÖEN:** | **9900071001** |
| **Hesab:** | **AZ25NABZ01701190000000001944,** |
| **Müxbir hesab:** | **AZ74NABZ01451700000000001944** |
| **SWIFT BIK:** | **NABZAZ2C** |

**Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamenti.**
**Xidmətin göstərilməsinə başlanma vaxtı: 27.11.2019-cu il tarixdən.**
**Xidmətin göstərilməsi müddəti: 12 (on iki) ay.**
**Qiymətləndirmə amilləri: maliyyə və texniki.**

Tenderdə iştirak etmək istəyən sığorta şirkətləri iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tender üzrə əlaqələndirici şəxs: Hüquq departamentinin əməkdaşı: Elvin Şirdanov (elvin_shirdanov@cbar.az, tel.: 493-11-22 (daxili 428)

***Tender komissiyası***

## İdman

# Ciu-citsu üzrə açıq Bakı kuboku turniri keçirilib

Oktyabrın 5-də Şağan Olimpiya İdman Kompleksində kontakt ciu-citsu və Braziliya ciu-citsusunun gi və nogi versiyaları üzrə açıq Bakı kuboku turnirinə start verilib. Yarış oktyabrın 6-da başa çatıb.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Ciu-citsu Federasiyasının birgə təşkilatçılığı ilə bütün yaş qrupları üzrə keçirilən turnirdə 100-dək idmançı birincilik uğrunda mübarizə aparıb.

Fərqlənənlər arasında DİN-in Su Polisi İdarəsinin iki əməkdaşı da var. Fərid Əhmədov 75 kq çəki dərəcəsində kontakt ciu-citsu üzrə, Ayaz Abbasov isə 80 kq çəki dərəcəsində Braziliya ciu-citsusunun gi versiyası üzrə bütün rəqiblərinə qalib gələrək 1-ci yerə çıxıblar.

Gərgin idman mübarizəsi şəraitində keçən turnirdə müxtəlif kateqoriyalar üzrə qalib gələn idmançılar diplom, medal və kuboklarla təltif olunublar.







## BİLDİRİŞ

Azərbaycan Respublikasının Energetika Nazirliyinin "Azərbaycan" qəzetinin 26 sentyabr və 06 oktyabr 2019-cu il tarixli nömrələrində dərc edilmiş "Bakı İstilik Elektrik Mərkəzindən qidalanan magistral istilik xətlərinin istismarının dayandırılması ilə əlaqədar mövcud istilik paylayıcı məntəqənin və yüksəldici nasos stansiyasının yenidən qurulmaqla müasir tipli məhəlli qazanxanaya çevrilməsi məqsədilə layihə-smeta sənədlərinin hazırlanması" iş və xidmətlərinin satın alınması ilə bağlı keçirilən açıq tender elanında qeyd edilmiş iddiaçıların tender təklifləri və bank zəmanətləri elektron qaydada, portal vasitəsilə təqdim edilməlidir.

Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada, portal vasitəsilə aparılacaqdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 13.09.2019-cu il tarixdə keçirilmiş LOT-1 "Bakı Metropoliteni" QSC üçün müxtəlif növ mühafizə vasitələrinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Debet Uniform" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə LOT-1 üzrə 07.10.2019-cu il tarixdə ƏDV daxil **582596.68** (beş yüz səksən iki min beş yüz doxsan altı manat 68 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı DOST Mərkəzi tərəfindən 24 sentyabr 2019-cu il tarixdə elan edilmiş kotirovka sorğusu metodu ilə inzibati binada quraşdırılmış 2 (iki) ədəd "Kone" markalı sərnişin liftinə (il ərzində 12 dəfə) texniki xidmətin göstərilməsi ilə əlaqədar satınalma müsabiqəsinin qalibi "LİFTTEXMONTAJ" MMC olmuşdur.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetində 01.10.2019-cu il tarixdə dərc edilmiş **"Bakı Metropoliteni" QSC üçün əlamətdar günlərlə bağlı hədiyyələrin alınması, dizayn xidmətləri, çap və videoçarxların çəkilməsi işlərinin satın alınmasına dair açıq tender elanında** iddiaçıların tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədlərinin təqdim olunma vaxtı 24 oktyabr 2019-cu il saat 16:00 kimi oxunmalıdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Tramp Nümayəndələr Palatasının spikerini xəyanətdə günahlandırır



ABŞ Prezidenti Donald Tramp demokratların nəzarət etdiyi Konqresin Nümayəndələr Palatasının spikeri Nensi Pelosini dövlətə xəyanətdə ittiham etmiş və onun impiçmentini istəmişdir. Bu barədə Amerika lideri özünün Twitter səhifəsində yazmışdır.

Tramp əmindir ki, Pelosi Nümayəndələr Palatasının kəşfiyyat üzrə xüsusi komitəsinin sədri Adam Şiffin "yalanlarından və kütləvi saxtakarlıqları"ndan xəbərdar idi. Beləliklə, onun fikrincə, həm Pelosi, həm də Şiff xüsusilə ağır cinayətlərdə, o cümlədən dövlətə xəyanətdə təqsirlidirlər. "Məhz onlara və onlarla sövdələşməyə gedənlərə dərhal impiçment elan olunmalıdır" deyə Tramp vurğulamışdır.

Xatırladaq ki, sentyabrın 24-də Nensi Pelosi Prezident Trampa qarşı impiçment prosedurunun başlandığını elan etmiş və ABŞ liderinin Ukrayna Prezidenti Vladimir Zelenskiyə zəngini konstitusiyanı pozmaq kimi qiymətləndirmişdir. Buna səbəb guya ki, Trampın Zelenskini ABŞ-ın sabiq vitse-prezidenti Co Baydenin oğlu Hanter Bayden barədə təhqiqat açmağa çağırmasıdır. Co Bayden növbəti prezident seçkilərində Trampın əsas rəqibidir. Sonradan Ağ ev telefon danışığının mətnini açıqlamışdır.

## Portuqaliyada seçkilərdə sosialistlər qələbə qazandılar




Portuqaliyada parlament seçkiləri başa çatmışdır. Hazırkı Baş Nazir Antoniu Koştanın başçılıq etdiyi sosialistlər qələbə qazanmışlar. Bu barədə "Euronews" telekanalı xəbər verir.

Lakin müşahidəçilərin dediklərinə görə, sosialistlər parlamentdə təxminən 46 faiz yer qazanmışlar və Koşta yaxın vaxtlarda koalisiya formalaşdırmaq üçün müttəfiq axtarmalıdır. Əks təqdirdə, o, hökumət başçısı kürsüsündən məhrum ola bilər.

Dörd il öncə, ötən parlament seçkilərində Koştanın partiyası kommunistlər və "yaşıllar"la ittifaq yarada bilmişdi. Lakin bu vaxt ərzində tərəfdaşlar arasında fikir ayrılığı xeyli güclənmişdir. İndi onların yenidən koalisiya formalaşdırması sual altındadır.

Koştanın əsas rəqibi isə, seçkilərin yekunlarına görə, parlamentdəki yerlərin üçdəbirini qazanmış sosial-demokratların lideri, 62 yaşlı Ruy Riu olmuşdur. 2015-ci ilədək hakimiyyətdə olan sosialistlər maliyyə böhranının fəsadlarını aradan qaldırmaq üçün sərt büdcə qənaəti, sosial xərcləri azaltmaq siyasətini həyata keçirirdi. Lakin hökumət ÜDM-in gözəçarpan artımına nail ola bilmədi. Nəticədə bir çox seçicilər sosial-demokratlardan üz döndərdilər. Buna görə də onlar siyasi nüfuzlarını qaytarmaq üçün mümkün alyanslar barədə düşünməli olacaqlar.

## Qırğızıstanda iki kömür şaxtasında 6 nəfər həlak oldu



Qırğızıstanın Batken vilayətində iki kömür şaxtasında ölümlə nəticələnən hadisələr baş vermişdir. Altı şaxtaçı həlak olmuş, ikisi yaralanmışdır. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Məlumata görə, Sulyukta şəhərindəki şaxtada qaz sızmışdır. Xilasedicilər beş fəhləni ağır vəziyyətdə şaxtadan çıxarmışlar. Onların üçü dünyasını dəyişmişdir.

Daha üç şaxtaçının cəsədi Kadamcay rayonunun Uç-Korqon kəndində yerin altından çıxarılmışdır. Onlar qanunsuz şaxtada özbaşına kömür hasil edərkən dəm qazından zəhərlənmişlər.

## Kosovoda parlament seçkilərində müxalifət qalib gəldi



Kosovoda keçirilmiş növbədənkənar parlament seçkilərində Serbiya ilə münasibətlərin normallaşması barədə dialoqun bərpasına çalışan müxalifətçi partiyalar qələbə qazanmışdır. "Öz müqəddəratını həlletmə" partiyası 26 faiz, Kosovo Demokratik Liqası 25 faiz səs toplamışdır. Kosovo Azadlıq Ordusunun siyasi qanadı kimi yaradılmış və 2007-ci ildən bəri hakimiyyətdə olan Kosovo Demokratik Partiyası cəmi 21 faiz səs toplamış və məğlubiyyətini etiraf etmişdir. Uduzanlar arasında hakim koalisiyaya daxil olmuş "Kosovonun gələcəyi uğrunda alyans" da var. O, 12 faiz səs toplamışdır.

İyulun 19-da alyansın lideri və hökumət başçısı Ramuş Xaradinay istefaya getdikdən sonra Kosovoda növbədənkənar parlament seçkiləri təyin olunmuşdur. Siyasətçi və sabiq səhra komandiri 2017-ci ildən Kosovonun Baş Naziri vəzifəsini tuturdu.

## ABŞ-da hücum zamanı dörd nəfər öldürüldü



ABŞ-ın Kanzas ştatında bara hücum nəticəsində 4 nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır. Bu barədə KSHB-TV telekanalı xəbər verir.

Məlumata görə, Kanzas-sitidə gecə saatlarında bar silahlı hücuma məruz qalmışdır. Polislər bildirmişlər ki, naməlum silahlılar bara daxil olaraq atəş açmışlar. Doqquz yaralıdan dördü dünyasını dəyişmiş, qalanları xəstəxanaya yerləşdirilmişdir.

Polis hadisə ilə bağlı təhqiqat açmışdır. Təhqiqatın nəticələri yaxın vaxtlarda açıqlanacaq.

## Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Məzəm, Bala Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Yusifcanlı, Füzuli rayonunun Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti Müşahidə Şurasının sədri Ağalar Vəliyev və səhmdar cəmiyyətin kollektivi "Gəncə Körpütikinti-2" Açıq Səhmdar Cəmiyyəti Müşahidə Şurasının sədri Aqibət Məmmədova anası

**TAVAT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin hakimi Əhməd Nurməmmədova qardaşı

**VİDADİ NURMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8965
Sifariş 3356
Qiyməti 40 qəpik